**Avtomobil nəqliyyatı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ərazisində avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanları, daşıyıcılar və avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə xidmətlərin istehlakçıları arasında yaranan münasibətləri tənzimləyir.

I fəsil
**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

1.0.1. avtonəqliyyat vasitəsi - sərnişin, yük və ya xüsusi avadanlığın avtomobil yolları ilə daşınması üçün nəzərdə tutulmuş mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitəsi (bir və ya bir neçə nəqliyyat vasitəsindən ibarət);

1.0.2. avtomobil nəqliyyatı - avtonəqliyyat vasitələrindən və avtomobil nəqliyyatının infrastrukturundan istifadə edilməklə, sərnişin və yük daşımalarının yerinə yetirildiyi nəqliyyat növü;

1.0.3. avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı - özünün və ya sifarişçinin adından sərnişinlərin və ya yüklərin daşınması, həmçinin avtomobil nəqliyyatı ilə daşımaların təşkili ilə əlaqədar müqavilələr bağlayan hüquqi və ya fiziki şəxs;

1.0.4. avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşımalar - sərnişin və ya yük daşınması müqaviləsi yaxud digər qanuni əsaslarla, daşınma haqqı ödənilməklə yerinə yetirilən daşımalar;

1.0.5. avtomobil nəqliyyatı ilə təsərrüfat ehtiyacları üçün daşımalar - hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə işçilərinin və ya yüklərinin daşınması məqsədilə və öz hesabına yerinə yetirilən daşımalar. Bu cür daşımalar üçün istifadə olunan avtonəqliyyat vasitələri həmin hüquqi şəxslərin və ya fərdi sahibkarların işçiləri tərəfindən idarə olunmalıdır;

1.0.6. avtomobil nəqliyyatının infrastrukturu - avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üçün istifadə olunan avtomobil yolları, avtovağzallar (avtostansiyalar), dayanacaq məntəqələri, avtomobil duracaqları, terminallar və digər qurğular, habelə avtonəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki-təmir sahələri və texniki-təmir stansiyaları, yanacaqdoldurma məntəqələri; [1]

1.0.7. avtobus - sürücünün oturacaq yeri daxil olmaqla, oturacaq yerlərinin sayı doqquzdan çox olan, sərnişin daşımaları üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitəsi;

1.0.8. baqaj - daşınmaq üçün qablaşdırılmış, sərnişin tərəfindən avtonəqliyyat vasitəsilə göndərilən və ya səfər boyu müşayiət edilən, qabariti, çəkisi və xüsusiyyətindən asılı olaraq daşınmasına icazə verilən yük;

1.0.9. daşıyıcı - daşınma müqaviləsi və ya digər qanuni əsaslarla sərnişin və yük daşımalarını yerinə yetirən hüquqi şəxs və ya fərdi sahibkar;

*1.0.9-1. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatoru (bundan sonra - operator) – avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən, işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, habelə sürücüsü (sürücüləri) hazırlıq səviyyəsinə dair tələblərə cavab verən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçota alınan hüquqi və ya fiziki şəxs;* [2]

*1.0.9-2. operatorun məsul şəxsi – operatorun nəqliyyat fəaliyyətini faktiki və davamlı şəkildə müqavilə əsasında idarə edən, eləcə də peşəkarlıq səriştəsi ilə bağlı meyarlara cavab verən fiziki şəxs;*

1.0.10. əl yükü - sərnişinə məxsus və öz xüsusiyyətlərinə, ölçülərinə, çəkisinə görə sərnişin avtonəqliyyat vasitəsinin salonunda daşınmasına icazə verilən əşyalar;

1.0.11. gediş sənədi (bilet) - sərnişinin avtobusda gediş hüququnu, sərnişin və daşıyıcı arasında daşınma müqaviləsinin bağlanmasını təsdiq edən və müəyyən edilmiş formada rəsmiləşdirilən sənəd;

*1.0.11-1. ödəniş aləti - şəhərdaxili (rayondaxili) müntəzəm marşrutlar üzrə sərnişin daşıyan avtobuslarda gediş haqqının elektron qaydada ödənilməsi üçün nəzərdə tutulmuş vasitə;*[3]

1.0.12. sərnişin avtonəqliyyat vasitəsi - konstruksiyasına və təchiz edilmiş avadanlığına görə insanların və baqajın daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsi;

1.0.13. sərnişin – avtonəqliyyat vasitəsində gediş hüququ verən sənəd (bilet) və ya digər qanuni əsaslarla daşınan fiziki şəxs;

1.0.14. sərnişin daşınması – sərnişinlərin avtonəqliyyat vasitəsilə yoladüşmə məntəqəsindən təyinat məntəqəsinə çatdırılması;

1.0.15. sifariş - avtomobil nəqliyyatı ilə sərnişin və ya yük daşımalarının sifarişçisi ilə daşıyıcı arasında münasibətləri tənzimləyən müqavilə;

1.0.16. sifarişçi - sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi barədə müvafiq qaydada müqavilə bağlamış orqan, yaxud onun tərəfindən təyin edilmiş səlahiyyətli hüquqi şəxs, habelə sərnişin və ya yük daşımaları barədə daşıyıcı ilə müqavilə bağlayan hüquqi və ya fiziki şəxs;

1.0.17. sürücü - avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan, daşımalar prosesində birbaşa iştirak edən, habelə müvafiq hallarda daşıyıcını təmsil edən şəxs;

1.0.18. taksi minik avtomobili - xüsusi tanınma nişanları və taksometrlə təchiz olunmuş, sürücünün oturacaq yeri daxil olmaqla, oturacaq yerlərinin sayı doqquzdan çox olmayan avtonəqliyyat vasitəsi;

1.0.19. ümumi istifadədə olan avtomobil nəqliyyatı - tənzimlənən və ya elan edilmiş tariflər tətbiq edilməklə, müqavilə ilə razılaşdırılmış qiymətlər üzrə hüquqi və ya fiziki şəxslərin müraciəti əsasında yerinə yetirilən sərnişin və yük daşımalarında istifadə olunan nəqliyyat vasitəsi;

1.0.20. yük - avtomobil daşıyıcısı tərəfindən təyinat məntəqəsinə çatdırılmaq üçün qəbul edilmiş əmtəə və ya qeyri-əmtəə təyinatlı mal;

1.0.21. yük avtonəqliyyat vasitəsi - konstruksiyasına və təchiz edilmiş avadanlığına görə yük daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsi;

1.0.22. yükgöndərən - adından yük göndərilməsi rəsmiləşdirilən hüquqi və ya fiziki şəxs;

1.0.23. yükalan - avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinə və ya digər müvafiq sənədlərə əsasən yükü almaq səlahiyyəti olan hüquqi və ya fiziki şəxs;

*1.0.24. taxoqraf – avtonəqliyyat vasitəsinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, hərəkətin sürətinə, habelə sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatları fasiləsiz olaraq ölçmək və ya qeydə almaq məqsədi ilə həmin avtonəqliyyat vasitəsində quraşdırılan elektromexaniki və ya elektron nəzarət cihazı.*[4]

Maddə 2. **Avtomobil nəqliyyatı haqqında qanunvericilik**

Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan, habelə həmin sahəni tənzimləyən digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. **Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması xidmətlərinin göstərilməsi, həmçinin avtomobil nəqliyyatının infrastruktur obyektləri ilə əlaqədar dövlət orqanları, daşıyıcılar, infrastruktur obyektlərinin sahibləri və nəqliyyat xidmətlərinin istehlakçıları arasında yaranan hüquqi və iqtisadi münasibətlərə tətbiq olunur.

3.2. Bu Qanunun müddəaları aşağıdakılara şamil edilmir:

3.2.1. kommunal və təcili tibbi yardım xidmətlərə məxsus, həmçinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təxirəsalınmaz təcili xidmətlərə aid edilmiş avtonəqliyyat vasitələri ilə yerinə yetirilən daşımalara;

3.2.2. müdafiə, ictimai asayişin qorunması və fövqəladə halların aradan qaldırılması ilə əlaqədar olan avtomobil daşımalarına;

3.2.3. dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının, büdcədənkanar dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi və xidməti istifadəsi üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitələri ilə yerinə yetirilən daşımalara;[5]

3.2.4. hüquqi şəxslərin və fərdi sahibkarların xidməti istifadəsi üçün nəzərdə tutulmuş minik avtomobilləri ilə yerinə yetirilən daşımalara;

3.2.5. hüquqi şəxslərin və fərdi sahibkarların ümumi istifadədə olan avtomobil yollarına çıxmadan yerinə yetirdiyi texnoloji və təsərrüfatdaxili (müəssisələrin, obyektlərin daxilində) avtomobil nəqliyyatı ilə daşımalarına;

3.2.6. fiziki şəxslərin mülkiyyətində yaxud istifadəsində olan avtonəqliyyat vasitələri ilə şəxsi ehtiyaclar üçün yerinə yetirdikləri daşımalara.

Maddə 4. **Avtomobil nəqliyyatı ilə daşımaların növləri**

4.0. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları təyinatına görə aşağıdakı növlərə bölünür:

4.0.1. şəhərdaxili (rayondaxili) sərnişin daşımaları – şəhərin (rayonun) inzibati-ərazi hüdudları daxilində yerinə yetirilən sərnişin daşımaları;

4.0.2. şəhərlərarası (rayonlararası) sərnişin daşımaları – ayrı-ayrı şəhərlərin (rayonların) inzibati ərazisində yerləşən yaşayış məntəqələri arasında yerinə yetirilən sərnişin daşımaları;

4.0.3. müntəzəm sərnişin daşımaları – işin başlanması və başa çatması vaxtları, sərnişinlərin avtomobil nəqliyyatına minməsi və ondan düşməsi yerləri, habelə tariflər müəyyən edilməklə, müvafiq cədvəl (hərəkət intervalı) və marşrut üzrə yerinə yetirilən sərnişin daşımaları;

4.0.4. qeyri-müntəzəm sərnişin daşımaları - sifarişçi ilə bağlanmış müqavilə (sifariş) əsasında daşıyıcı tərəfindən yerinə yetirilən və müntəzəm daşımalara aid olmayan sərnişin daşımaları;

4.0.5. ölkədaxili yük daşımaları – Azərbaycan Respublikasının hüdudları daxilində yerinə yetirilən yük daşımaları;

4.0.6. beynəlxalq daşımalar – avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisindən digər dövlətlərə və ya digər dövlətlərdən Azərbaycan Respublikasının ərazisinə, habelə Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçməklə yerinə yetirilən sərnişin və ya yük daşımaları.

Maddə 5. **Avtomobil nəqliyyatı sahəsində fəaliyyətin əsas prinsipləri**

5.0. Avtomobil nəqliyyatı sahəsində işlərin görülməsi və xidmətlərin göstərilməsi aşağıdakı prinsiplərə əsaslanır:

5.0.1. avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən bütün subyektlərin mülkiyyət növündən asılı olmayaraq hüquq bərabərliyi;

5.0.2. avtomobil nəqliyyatı sahəsində fəaliyyətin dövlət tənzimlənməsinin sosial yönümlüyü və ictimai maraqların üstünlüyünün təmin olunması;

5.0.3. avtomobil nəqliyyatı xidmətlərinin istehlakçıları tərəfindən daşıyıcının azad seçilməsi;

5.0.4. avtomobil nəqliyyatı sahəsində fəaliyyətin təhlükəsizliyinin vahid norma, standart və qaydalar əsasında təmin olunması.

Maddə 6. **Avtonəqliyyat vasitələrinə və avtomobil nəqliyyatının infrastrukturuna dair ümumi tələblər**

6.1. Avtonəqliyyat vasitələrinin kütlə, qabarit ölçüləri və digər texniki göstəriciləri hərəkətin təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsinə dair Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının tələblərinə uyğun olmalıdır.

6.2. Avtonəqliyyat vasitələrinin əlavə avadanlıqla, o cümlədən müxtəlif təyinatlı nəzarət cihazları ilə təchiz edilməsinə dair tələblər Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunur.

6.3. Ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinə, habelə ümumi istifadədə olan sərnişin avtomobil nəqliyyatı üçün dayanacaqlara dair ümumi tələblər “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunur.

6.4. Avtomobil nəqliyyatının infrastrukturu sərnişin və yük daşımalarının yerinə yetirilməsinə, yol hərəkətinin təhlükəsizliyinə, ətraf mühitin mühafizəsinə dair, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş digər tələblərə cavab verməlidir.

6.5. Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki-təmir stansiyalarının *(sahələrinin),* yanacaq doldurma məntəqələrinin yerləşdirilməsi yaxud *təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə* yenidən qurulması sərnişin və yük axınının həcminə, həmçinin nəqliyyat xidmətləri istehlakçılarının tələbatına uyğun olaraq, *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)* rəyi nəzərə alınmaqla qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.[6]

Maddə 7. **Avtovağzallara (avtostansiyalara) dair tələblər**

7.1. Avtovağzallar (avtostansiyalar) ~~şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm~~ sərnişin daşınmasını yerinə yetirən daşıyıcılara və sərnişinlərə xidmət göstərilməsi məqsədilə ayrı-ayrı şəhərlərdə və rayonların inzibati mərkəzlərində, habelə sərnişin axını intensiv olan iri nəqliyyat qovşaqlarında təşkil olunur.[7]

7.2. Avtovağzalda 75-dən artıq sərnişin tutan gözləmə zalı, ən azı inzibati bina və ya xidməti otağı, bir necə bilet kassası, ana və uşaq otağı, baqaj saxlama kamerası, iaşə, mədəni-məişət və sanitar-gigiyenik təyinatlı sahələr, tibbi yardım və polis məntəqələri, sürücülərin istirahət otağı, sərnişinlərin minib-düşməsi üçün perron, avtobusların reyslərarası dayanması üçün meydança və təmizləmə postu, habelə şəhər nəqliyyatının və taksi minik avtomobillərinin dayanması üçün vağzalyanı sahə olmalıdır.

7.3. Avtostansiyada 75-dək sərnişin tutan gözləmə zalı, ən azı bir xidməti otağı, bilet kassası, sanitar-gigiyenik təyinatlı sahə, sərnişinlərin minib-düşməsi üçün perron olmalıdır.

7.4. Avtovağzallarda (avtostansiyalarda) aşağıdakı növ xidmətlər göstərilir:

7.4.1. gediş sənədlərinin (biletlərin) satışı;

7.4.2. sərnişin avtonəqliyyat vasitələrinin gəlməsinin və yola düşməsinin idarə olunması;

7.4.3. sərnişin avtonəqliyyat vasitələrinin sanitar-gigiyenik vəziyyətinə, müvafiq avadanlıq və ləvazimatlarla təchiz olunmasına nəzarət;

7.4.4. ticarət və məişət xidmətləri;

7.4.5. sərnişinlər və daşıyıcılar tərəfindən avtonəqliyyat vasitəsilə sərnişin və baqaj daşınması qaydalarına riayət olunmasına nəzarət.

7.5. Gün ərzində eyni vaxtda müvafiq xidmətlər göstərilə bilən sərnişinlərin sayından, binaların, tikililərin, texnoloji avadanlıqla təchizatından, həmçinin göstərilən xidmətlərin çeşidindən və səviyyəsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir avtovağzala (avtostansiyaya) kateqoriyasına uyğun olaraq pasport verilir. Pasport avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsi üçün rəsmi sənəd hesab edilir. Pasport olmadan avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsinə, habelə avtovağzalın (avtostansiyanın) fəaliyyətinin müvafiq kateqoriyaya uyğun texnoloji prosesinin pozulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. *Pasportun verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir.*[8]

7.6. Avtovağzalların (avtostansiyaların) göstərdiyi xidmətlərin onlara verilmiş pasporta uyğunluğuna nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Avtovağzalın (avtostansiyanın) göstərdiyi xidmətlərin səviyyəsi ona verilmiş pasportda qeyd edilmiş kateqoriyadan aşağı olduqda, müvafiq icra hakimiyyəti orqanı pasportun qüvvəsini dayandıra və ya pasportla müəyyən olunmuş kateqoriyanı aşağı sala bilər.

7.7. Avtovağzalların (avtostansiyaların) vəzifə və funksiyaları, fəaliyyətinin xüsusiyyətləri və texnoloji prosesi, həmçinin avtovağzallara (avtostansiyalara) pasportun verilməsi və onların müvafiq kateqoriyalara aid edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"yə uyğun olaraq müəyyən edilir.

### *Maddə 7-1.* ***Avtonəqliyyat vasitələrinə texniki xidmət göstərilməsinə dair tələblər***[9]

*7-1.1. Avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları (sahələri) avtonəqliyyat vasitələrinin təmiri və onlara texniki xidmət, nasazlığın aradan qaldırılması, eləcə də onların etibarlı və təhlükəsiz istismarı, həmçinin ekoloji yararlılığı üzrə kompleks işlərin təminatlı şərtlərlə yerinə yetirilməsi məqsədi ilə yaradılır.*

*7-1.2. Göstərilmiş texniki xidmətin təminatlı şərtləri yerinə yetirilmiş işlərin nəticələrinin təhlükəsizliyinə və xidmətdən sonra yenidən yaranmış həmin nasazlığın müəyyən edilmiş müddət ərzində ödənişsiz aradan qaldırılmasına görə xidmət göstərənin maddi və hüquqi məsuliyyətini nəzərdə tutur.*

*7-1.3. Texniki-təmir stansiyalarında avtonəqliyyat vasitələrinə texniki xidmət və onların təmiri üzrə bütün növ texniki-təmir xidmətləri göstərilir.*

*7-1.4. Texniki-təmir sahələrində avtonəqliyyat vasitələrinə texniki xidmət və onların təmiri üzrə müəyyən növ təminatlı texniki xidmətlər göstərilir.*

*7-1.5. Texniki-təmir stansiyalarında (sahələrində) çalışan şəxslər həmin stansiyalar (sahələr) tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi metodiki göstərişlərlə tanış edilir.*

*7-1.6. Texniki-təmir stansiyalarının (sahələrinin) istehsalat-texniki bazası, texnoloji təchizatı və istehsalat sahələrində texnoloji prosesin təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi sahə standartlarının tələblərinə uyğun olmalıdır. Texniki-təmir stansiyalarının (sahələrinin)*

*müəyyən olunmuş sahə standartlarının tələblərinə uyğunluğuna nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*

*7-1.7. Texniki-təmir stansiyaları (sahələri) tərəfindən bu Qanunun, habelə bu sahədə müəyyən olunmuş sahə standartlarının tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.*

Maddə 8. **Avtonəqliyyat vasitələrinin qeydiyyatı**

8.1. Sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınmalıdır. Həmin avtonəqliyyat vasitəsi yalnız bir dövlətdə qeydiyyata alına bilər.

8.2. Avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunur.

8.3. Dövlət qeydiyyatına alınmamış avtonəqliyyat vasitəsindən istifadə olunması qadağandır.

Maddə 9. **Avtomobil nəqliyyatında əmək münasibətlərinin tənzimlənməsi**

9.1. Avtomobil nəqliyyatı sahəsində əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi və digər müvafiq normativ hüquqi aktları ilə tənzimlənir.

*9.2. Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqrafla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*[10]

*9.3. Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*[11]

II fəsil

## AVTOMOBİL NƏQLİYYATI SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ İDARƏETMƏSİ

Maddə 10. **Avtomobil nəqliyyatı sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin əsas vəzifələri**

10.1. Avtomobil nəqliyyatı sahəsində dövlət idarəetməsinin əsas vəzifələri aşağıdakılardır:

10.1.1. vahid dövlət siyasətinin həyata keçirilməsi;

10.1.2. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qayda və tələblərə riayət olunmasına nəzarət edilməsi;

10.1.3. avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi zamanı texnoloji və ekoloji təhlükəsizliyin təmin olunması üçün şərait yaradılması.

10.2. Avtomobil nəqliyyatı sahəsində dövlət tənzimlənməsinin əsas vəzifələri aşağıdakılardır:

10.2.1. iqtisadiyyatın və əhalinin avtomobil nəqliyyatı ilə daşımalara, həmçinin digər nəqliyyat xidmətlərinə olan ehtiyaclarının təmin olunmasına şərait yaradılması;

10.2.2. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində sahibkarlığın stimullaşdırılması, daşıyıcılar arasında azad rəqabətin təmin olunması, habelə avtomobil nəqliyyatı xidmətlərindən istifadə edən hüquqi və fiziki şəxslərin qanuni maraqlarının dövlət tərəfindən qorunması;

10.2.3. Azərbaycan Respublikasının avtomobil daşıyıcılarının beynəlxalq daşımalar bazarında rəqabət qabiliyyətinin artırılması üçün əlverişli şəraitin yaradılması;

10.2.4. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşıyıcılarının ölkədaxili və beynəlxalq avtomobil daşımaları bazarına çıxışının tənzimlənməsi;

10.2.5. avtomobil nəqliyyatı xidmətlərinin ixracının stimullaşdırılması;

10.2.6. avtomobil nəqliyyatı ilə daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün şərait yaradılması;

10.2.7. avtomobil nəqliyyatı ilə ölkədaxili daşımalar bazarının qorunması;

10.2.8. avtomobil nəqliyyatı ilə daşımalar bazarında inhisarçılığın qarşısının alınması və azad rəqabət mühitinin inkişaf etdirilməsi;

10.2.9. ümumi istifadədə olan avtomobil nəqliyyatında tarif siyasətinin formalaşdırılması;

10.2.10. avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən ətraf mühitin qorunması.

Maddə 11. **Avtomobil nəqliyyatı xidmətlərinin tarifləri**

11.1. Avtomobil nəqliyyatı xidmətlərinin tarifləri Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qaydada müəyyən olunur.

11.2. Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşınma tariflərinin yuxarı həddi Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq müəyyən edilir.

Maddə 12. **Avtomobil nəqliyyatında səfərbərlik hazırlığının təmin olunması və avtomobil daşıyıcılarının fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb edilməsi**

12.1. Azərbaycan Respublikasının müvafiq dövlət orqanları avtomobil nəqliyyatının səfərbərlik hazırlığının zəruri səviyyədə saxlanmasını təmin etməlidirlər.

12.2. Təbii və ya texnogen xarakterli fövqəladə hadisələr baş verdikdə avtomobil daşıyıcıları onların nəticələrinin aradan qaldırılmasını idarə edən dövlət orqanlarının qanuni tələblərini yerinə yetirməyə borcludurlar.

12.3. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb olunmuş avtomobil daşıyıcılarının qəza-xilasetmə tədbirlərinin həyata keçirilməsi zamanı çəkdiyi xərclərin və ya onlara dəymiş zərərin əvəzi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilir.

12.4. Avtomobil nəqliyyatının səfərbərlik hazırlığı və avtomobil daşıyıcılarının fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb olunması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunur.

Maddə 13. **Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılması**

13.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə bu fəaliyyət növləri ilə məşğul olan hüquqi şəxslərin və fərdi sahibkarların fəaliyyəti lisenziyalaşdırılır.

13.2. Bu Qanunla müəyyən edilmiş hallar istisna edilməklə, xüsusi razılıq (lisenziya) olmadan və ya digər şəxslərə məxsus xüsusi razılıq (lisenziya) əsasında sərnişin və yük daşımalarının yerinə yetirilməsinə yol verilmir.

13.3. Xüsusi razılıq (lisenziya) avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının aşağıdakı növlərinin yerinə yetirilməsi üçün verilir:

13.3.1. şəhərdaxili (rayondaxili) *müntəzəm* sərnişin daşımalarına; [12]

13.3.2. şəhərlərarası (rayonlararası) *müntəzəm* sərnişin daşımalarına;

13.3.3. beynəlxalq *müntəzəm* sərnişin daşımalarına;
13.3.4. taksi minik avtomobilləri ilə sərnişin daşımalarına;
13.3.5. ölkədaxili yük daşımalarına;
13.3.6. beynəlxalq yük daşımalarına.

13.4. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması sahəsində fəaliyyət üçün bu Qanunun 13.3-cü maddəsində nəzərdə tutulmuş hər bir daşıma növü üzrə ayrıca xüsusi razılıq (lisenziya) tələb olunur.

13.5. Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşınmasına verilmiş xüsusi razılıq (lisenziya) əsasında yük daşıyıcısı ölkədaxili yük daşımalarını yerinə yetirmək hüququna malikdir.

13.6. Hüquqi şəxslər və ya fərdi sahibkarlar tərəfindən sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə təsərrüfat ehtiyacları üçün öz işçilərinin və ya yüklərinin daşınmasına xüsusi razılıq (lisenziya) tələb olunmur.

13.7. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına xüsusi razılıq (lisenziya) qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən 5 il müddətinə verilir.

Maddə 14. ***Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində lisenziyalaşdırmanın və xüsusi razılığın (lisenziyanın) şərtləri*** [13]

*14.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində lisenziyalaşdırmanın şərtləri aşağıdakılardır:*[14]

14.1.1. hüquqi şəxsin və ya fərdi sahibkarın vergi orqanlarında qeydiyyatda olması;

14.1.2. hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət hüququ və ya digər qanuni əsaslarla təyinatına, konstruksiyasına, habelə daxili və xarici avadanlıqla təchizatına görə yük və sərnişin daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş və qanunvericiliklə müəyyən edilmiş qaydada yol hərəkətinə buraxılmış *Azərbaycan Respublikasının dövlət standartları ilə müəyyən edilmiş tələblərə cavab verən* avtonəqliyyat vasitələrinə malik olması;[15]

14.1.3. hüquqi şəxsin və ya fərdi sahibkarın müəyyən edilmiş tələblərə cavab verən və bu Qanunun 27.3-cü və 50.5-ci maddələri ilə nəzərdə tutulmuş xüsusi hazırlıq keçmiş avtonəqliyyat vasitələrinin sürücüləri ilə əmək müqaviləsinin olması;

14.1.4. avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanması.[16]

*14.1-1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş xüsusi razılığın (lisenziyanın) şərtləri aşağıdakılardır:* [17]

*14.1-1.1. müvafiq icra hakimiyyəti orqanının avtomobil nəqliyyatı ilə sərnişinlərin, baqajın və yüklərin daşınmasına dair müəyyən etdiyi qaydalara riayət edilməsi;*

*14.1-1.2. avtomobil nəqliyyatı ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortalanması;*

*14.1-1.3. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində vergi qanunvericiliyinin tələblərinə əməl olunması;*

*14.1-1.4. avtonəqliyyat vasitələrinin sürücülərinin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə əməl olunması;*

*14.1-1.5. ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinin, o cümlədən taksi minik avtomobillərinin, habelə beynəlxalq yük daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinin sürücülərinin xüsusi hazırlıq keçmələri.*

14.2. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) almaq üçün hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən lisenziya verən dövlət orqanına aşağıdakı sənədlər və məlumatlar təqdim edilir:

14.2.1. müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi formada ərizə;

14.2.2. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti;

14.2.3. ərizəçinin vergi orqanları tərəfindən qeydiyyata alınması haqqında müvafiq sənədin surəti;

14.2.4. mülkiyyətində və digər qanuni əsaslarla sərəncamında olan avtonəqliyyat vasitələrinin ümumi və növlər üzrə sayı haqqında məlumat *(ərizədə qeyd olunmaqla);*[18]

14.2.5. sərnişin və ya yük daşımaları üçün istifadə olunması nəzərdə tutulmuş avtonəqliyyat vasitələrinin hər biri üçün müvafiq hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.) hüququnu təsdiq edən sənədlərin, habelə *Azərbaycan Respublikasının dövlət standartları ilə müəyyən edilmiş istismar müddəti tələblərinə cavab verdiyini təsdiq edən avtonəqliyyat vasitələrinin buraxılış ili haqda və* qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçdiyi haqda məlumatın göstərildiyi dövlət qeydiyyatı şəhadətnaməsinin surəti;[19]

14.2.6. sürücülərin müvafiq kateqoriyalı *(altkateqoriyalı)* sürücülük vəsiqəsinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda zəruri iş stajı və ya sürücülük təcrübəsi barədə təsdiqedici sənədlərin surəti;[20]

14.2.7. ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinin, *o cümlədən taksi minik avtomobillərinin,* habelə beynəlxalq yük daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinin sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədlərin surətləri;[21]

14.2.8. bu Qanunun 14.1.4-cü maddəsinə uyğun olaraq müvafiq icbari sığorta şəhadətnaməsinin surəti; [22]

*14.2.8-1. taksi minik avtomobilləri ilə sərnişin daşınması üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitəsinin təchiz olunduğu taksometrin metroloji yoxlamadan keçməsini təsdiq edən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən akkreditasiya olunan qurumlar tərəfindən verilmiş yoxlama haqqında şəhadətnamə.*[23]

14.2.9. *lisenziyalaşdırmaya təqdim edilmiş hər bir avtonəqliyyat vasitəsi üçün* dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd (bu maddə ilə nəzərdə tutulmuş digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim olunur).[24]

14.3. Xüsusi razılıq (lisenziya) verən müvafiq icra hakimiyyəti orqanı avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verərkən bu Qanunun 15.5-ci maddəsində nəzərdə tutulmuş qaydada avtonəqliyyat vasitəsinin müəyyən olunmuş tələblərə uyğunluğunu nəzərə almalıdır.

14.4. Sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) almaq üçün hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən təqdim edilmiş sənədlərdəki məlumatların düzgünlüyünə görə həmin şəxslər məsuliyyət daşıyır.

Maddə 15. **Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılmasının xüsusiyyətləri**

15.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilən xüsusi razılığa (lisenziyaya) onu almış daşıyıcının sərəncamında olan avtonəqliyyat vasitələrinin sayına uyğun olaraq lisenziya kartları əlavə edilir. *Lisenziya kartı daşıyıcının həmin avtonəqliyyat vasitəsi ilə sərnişin və yük daşımalarını həyata keçirmək üçün xüsusi razılığa (lisenziyaya) malik olduğunu təsdiq edir və müvafiq xüsusi razılıq (lisenziya) verilərkən təqdim edilir.*[25]

15.2. Lisenziya kartında aşağıdakılar göstərilir:

15.2.1. lisenziya kartının nömrəsi və verilmə tarixi;

15.2.2. xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi, tarixi və qüvvədə olma müddəti;

15.2.3. xüsusi razılıq (lisenziya) sahibinin adı və ünvanı;

15.2.4. avtonəqliyyat vasitəsinin markası, növü və dövlət qeydiyyat nişanı barədə məlumatlar;

15.2.5. daşımaların növü (müntəzəm sərnişin daşımalarında müvafiq müntəzəm marşrutun nömrəsi göstərilməklə);

15.2.6. *bu Qanunla müəyyən edilmiş hallarda* avtonəqliyyat vasitəsinin rüblük texniki yoxlamadan keçməsi barədə qeydlər;[26]

15.2.7. lisenziya kartını vermiş səlahiyyətli orqanın möhürü və vəzifəli şəxsinin imzası;

15.2.8. lisenziya kartının etibarlılıq müddəti.

15.3. Lisenziya kartının etibarlılıq müddəti xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddəti ilə eynidir. *Avtonəqliyyat vasitəsindən icarə və ya digər əşya hüquqları əsasında istifadə edildikdə, lisenziya kartının etibarlılıq müddəti xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddətindən artıq olmamaqla, icarə müqaviləsinin yaxud digər əşya hüquqlarının qüvvədə olma müddəti ilə müəyyən edilir.*[27]

15.4. Sərəncamında olan avtonəqliyyat vasitələrinin sayı dəyişdikdə yaxud avtonəqliyyat vasitəsi başqası ilə əvəz olunduqda, hüquqi şəxs və ya fərdi sahibkar sərnişin və yük daşınmasına xüsusi razılıq (lisenziya) vermiş orqana əlavə lisenziya kartlarının verilməsi haqqında ərizə ilə müraciət etməlidir. Ərizəyə bu Qanunun 14.2.4-cü, 14.2.5-ci, 14.2.6-cı və 14.2.7-ci maddələrində müəyyən edilmiş sənədlər əlavə olunmalıdır. Əlavə lisenziya kartlarının verilməsi haqqında ərizəyə 10 gün müddətində baxılır ~~və nəticəsi barədə müraciət edən şəxsə yazılı formada bildirilir~~. *Sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə hər bir avtonəqliyyat vasitəsi üçün (avtonəqliyyat vasitəsinin başqası ilə əvəz olunması halları istisna olmaqla) dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd təqdim olunur.*[28]

15.5. *Taksi minik avtomobilləri ilə sərnişin daşımaları istisna olmaqla, sərnişin* və yük daşımaları üçün avtonəqliyyat vasitəsinə lisenziya kartı verilərkən, habelə lisenziya kartı verildikdən sonra rübdə bir dəfə həmin avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən yoxlanılır. Həmin yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. *Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına xüsusi razılıq (lisenziya) verilərkən və həmin avtomobillərlə sərnişin daşımalarının həyata keçirilməsi zamanı avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğu "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilən nəqliyyat vasitəsinin texniki baxış talonu ilə müəyyən edilir*.[29]

15.6. Sərnişin və yük daşınmasına verilmiş xüsusi razılıq (lisenziya) ləğv edildikdə, qüvvəsi dayandırıldıqda və ya daşımalarda istifadə edilən sərnişin və ya yük avtonəqliyyat vasitəsi rüblük texniki yoxlamadan keçmədikdə, lisenziya kartları daşıyıcıdan geri alınır.

15.7. Nəqliyyat xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən avtomobil nəqliyyatı ilə daşımaların və ya avtonəqliyyat vasitələrinin müəyyən növləri üçün xüsusi razılığın (lisenziyanın) yaxud lisenziya kartlarının sayına məhdudiyyətlər tətbiq edilə bilər. Müvafiq icra hakimiyyəti orqanı məhdudiyyətləri tədbiq etməzdən 60 gün əvvəl kütləvi informasiya vasitələrində məlumat verir.

*Maddə 15-1.* ***Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş xüsusi razılığın (lisenziyanın) qüvvəsinin dayandırılması və ya ləğv edilməsi***[30]

*15-1.1. Müvafiq icra hakimiyyəti orqanı avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş xüsusi razılığın (lisenziyanın) qüvvəsini aşağıdakı hallarda dayandırır:*

*15-1.1.1. lisenziya almış hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən müvafiq ərizə təqdim edildikdə;*

*15-1.1.2. lisenziya almış hüquqi şəxsin və ya fərdi sahibkarın fəaliyyəti dayandırıldıqda;*

*15-1.1.3. hüquqi şəxs və ya fərdi sahibkar bu Qanunun 14.1-1-ci maddəsində nəzərdə tutulmuş xüsusi razılığın (lisenziyanın) şərtlərini pozduğuna görə il ərzində azı beş dəfə inzibati məsuliyyətə cəlb edildikdə.*

*15-1.2. Müvafiq icra hakimiyyəti orqanı lisenziyanın qüvvəsinin dayandırılması haqqında qərar qəbul etdiyi andan 5 gün müddətində yazılı şəkildə lisenziya almış hüquqi şəxsə və ya fərdi sahibkara, habelə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərir. Lisenziyanın qüvvəsinin dayandırılması müddəti lisenziyanın qüvvədə olma müddətinə təsir etmir.*

*15-1.3. Lisenziyanın qüvvəsinin dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqdan sonra lisenziyanın qüvvəsi lisenziya almış hüquqi şəxsin və ya fərdi sahibkarın müraciətinə əsasən bərpa edilir. Müvafiq icra hakimiyyəti orqanı lisenziyanın qüvvəsinin bərpa edilməsi barədə qərar qəbul etdiyi andan 5 gün müddətində yazılı şəkildə lisenziya almış hüquqi şəxsə və ya fərdi sahibkara, habelə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərir.*

*15-1.4. Müvafiq icra hakimiyyəti orqanı avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş xüsusi razılığı (lisenziyanı) aşağıdakı hallarda ləğv edir:*

*15-1.4.1. lisenziya almış hüquqi şəxs və ya fərdi sahibkar tərəfindən müvafiq ərizə təqdim edildikdə;*

*15-1.4.2. məhkəmənin müvafiq qərarı olduqda;*

*15-1.4.3. lisenziya almış hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkar vəfat etdikdə;*

*15-1.4.4. lisenziya verilməsi üçün təqdim edilən sənədlərdə yanlış məlumat aşkar edildikdə;*

*15-1.4.5. lisenziya almış hüquqi şəxs və ya fərdi sahibkarın müflisləşməsi faktı "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiq edildikdə.*

*15-1.5. Müvafiq icra hakimiyyəti orqanı lisenziyanın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 5 gün müddətində yazılı şəkildə lisenziya almış hüquqi şəxsə və ya fərdi sahibkara, habelə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərir.*

*15-1.6. Hüquqi şəxs və ya fərdi sahibkar bu Qanunun 15-1-ci maddəsinə əsasən qəbul edilmiş qərarlardan inzibati və məhkəmə qaydasında şikayət etmək hüququna malikdir.*

Maddə 16. **Avtomobil nəqliyyatının standartlaşdırılması, metroloji təminatı və sertifikatlaşdırılması**

16.1. Avtomobil nəqliyyatında standartlaşdırma, metroloji təminat və sertifikatlaşdırma Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunmuş qaydada yerinə yetirilir.

16.2. Avtomobil nəqliyyatında dövlət metroloji nəzarət Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına uyğun olaraq aparılır.

16.3. Avtomobil nəqliyyatı sahəsində fəaliyyət, yol hərəkətinin və daşımaların təhlükəsizliyi, insanların həyat və sağlamlığı, ətraf mühitin mühafizəsi, habelə digər norma və tələblərə uyğun olmalıdır.

III fəsil

## AVTOMOBİL NƏQLİYYATI İLƏ DAŞIMALARIN YERİNƏ YETİRİLMƏSİNİN ÜMUMİ ƏSASLARI

Maddə 17. **Avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşımaların yerinə yetirilməsinin hüquqi əsasları**

17.1. Avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşımalar sərnişin və yük daşımaları haqqında müqavilə, sərnişin və yük daşımalarının təşkil olunması haqqında müqavilə, icarə (kirayə) müqaviləsi, habelə avtomobil daşıyıcıları ilə avtomobil nəqliyyatı ilə daşımaların sifarişçiləri (sərnişinlər, yükgöndərənlər, sərnişin və yük avtomobil daşımalarının təşkilatçıları) arasında bağlanan digər müqavilələr əsasında yerinə yetirilir.

17.2. Ən azı iki nəqliyyat növündən istifadə edilməklə yerinə yetirilən sərnişin və yük daşımaları (qarışıq daşımalar) daşıyıcılarla daşımaların sifarişçiləri (təşkilatçıları) arasında bağlanılan müqavilələr əsasında yerinə yetirilir.

Maddə 18. **Avtomobil nəqliyyatı ilə sərnişin, baqaj və yük daşınması qaydaları**

Avtomobil nəqliyyatı ilə sərnişinlərin və yüklərin daşınmasının təşkili və yerinə yetirilməsi qaydası müvafiq olaraq "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

Maddə 19. **Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalar**

19.1. Daşıyıcının hər hansı hüquqi və ya fiziki şəxsin sifarişi (müraciəti) ilə tənzimlənən və ya elan edilmiş tariflər üzrə daşımaları yerinə yetirmək öhdəliyi, ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşınma hesab edilir.

19.2. Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcı daşımaların şərtlərinin, o cümlədən tariflər barədə məlumatların şəffaflığını təmin etməlidir.

Maddə 20. **Taksi minik avtomobilləri ilə sərnişin daşımaları**

20.1. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları xüsusi razılığa (lisenziyaya) malik olan daşıyıcılar tərəfindən metroloji yoxlamadan keçmiş taksometrin göstəriciləri üzrə, ödəniş əsasında yerinə yetirilir.

20.2. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları müəyyən edilmiş ərazi hüdudları daxilində hər hansı şəxsin sifarişi əsasında qeyri-müntəzəm marşrut üzrə yerinə yetirilir.

20.3. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarını yerinə yetirən daşıyıcı sifariş gözləyərkən yalnız *xüsusi olaraq müəyyən edilmiş və müvafiq qaydada işarələnmiş taksi minik avtomobillərinin duracaq yerlərindən* istifadə etməlidir.[31]

20.4. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarının xüsusiyyətləri "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə müəyyən olunur.

Maddə 21. **Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının sifarişi**

21.1. Avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının təmin olunması məqsədilə *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən marşrut şəbəkəsi müəyyənləşdirilir və dövlət sifarişi formalaşdırılır.

21.2. Daşıyıcılar avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməsinə sifarişçinin keçirdiyi müsabiqə əsasında cəlb olunurlar.

21.3. Sifarişçi müsabiqəyə müntəzəm avtobus marşrutlarını və ya daşımaların intensivliyini, həmçinin rentabelliyini nəzərə alaraq marşrutların müvafiq reyslərini çıxarır.

21.4. Müsabiqənin qalibləri müntəzəm marşrutlar və ya marşrutların müəyyən reysləri üzrə sərnişindaşıma xidmətləri göstərmək hüququnu əldə edirlər.

21.5. Sifarişçi müsabiqənin qalibinin maddi-texniki bazasını nəzərə alaraq hər bir şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) marşruta dair 5 ilədək, lakin 3 ildən az olmayan müddətə, beynəlxalq marşruta dair isə 3 ilədək, lakin 1 ildən az olmayan müddətə müvafiq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə bağlayır. Müsabiqənin qalibi olan daşıyıcı dövlət sifarişi əsasında sərnişin daşımalarını yerinə yetirə bilmədikdə yaxud lazımi qaydada yerinə yetirmədikdə və ya onunla bağlanmış müqavilənin digər şərtlərini pozduqda sifarişçi həmin müqaviləni birtərəfli qaydada vaxtından əvvəl ləğv etmək hüququna malikdir.

21.6. Müəyyən marşrut üzrə müsabiqədə yalnız bir iddiaçı olan daşıyıcı iştirak etdikdə, müvafiq müqavilə yalnız həmin daşıyıcının müsabiqənin bütün tələblərinə uyğun olduğu halda bağlanılır.

21.7. Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*Maddə 21-1.* ***Avtomobil nəqliyyatı ilə qeyri-müntəzəm sərnişin daşımaları***[32]

*21-1.1. Avtomobil nəqliyyatı ilə qeyri-müntəzəm sərnişin daşımaları (taksi minik avtomobilləri ilə daşımalar istisna olmaqla), sərnişin daşınması müqaviləsi, sərnişin avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi əsasında əvəzi ödənilməklə yerinə yetirilir.*

*21-1.2. Qeyri-müntəzəm sərnişin daşımalarına turizm və ekskursiya, kütləvi tədbirlər və istirahət yerlərinə yerinə yetirilən, habelə müntəzəm sərnişin daşımalarına aid olmayan sərnişin daşımaları aiddir.*

*21-1.3. Avtomobil nəqliyyatı ilə qeyri-müntəzəm sərnişin daşımalarının yerinə yetirilməsinə aşağıdakı hallarda yol verilmir:*

*21-1.3.1. müntəzəm avtobus marşrutları üçün müəyyən edilmiş hərəkət cədvəlləri ilə daşımaları yerinə yetirmək;*

*21-1.3.2. müntəzəm marşrutlar üçün müəyyən edilmiş dayanacaqlarda sərnişinləri mindirmək və düşürmək.*

*21-1.4. Avtomobil nəqliyyatı ilə qeyri-müntəzəm sərnişin daşımalarının xüsusiyyətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən avtomobil nəqliyyatı ilə sərnişinlərin və baqajın daşınmasına dair təsdiq edilən qaydalarla* müəyyən edilir.

Maddə 22. **Nəqliyyat sənədləri**

22.1. Sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi üçün tələb edilən sənədlərin forması və rəsmiləşdirilməsi qaydası müvafiq olaraq "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən olunur.

22.2. Sərnişin və ya yük daşınması məqsədilə avtonəqliyyat vasitəsindən istifadə edilməsi müvafiq formada tərtib edilən yol vərəqəsi ilə rəsmiləşdirilir.

22.3. Müntəzəm marşrut üzrə sərnişin daşımaları yerinə yetirilərkən hər bir sərnişin gediş sənədinə (biletə) *(gediş haqqının elektron qaydada ödənildiyi hallar istisna olmaqla)*, baqaj ödəniş əsasında daşındıqda isə, həmçinin onun daşınma haqqının ödənildiyini təsdiq edən sənədə (baqaj qəbzinə) malik olmalıdır. Müvafiq gediş sənədinin (biletin) satışını və sərnişinin baqajının daşınma haqqının ödənildiyini təsdiq edən sənədin verilməsini daşıyıcı və ya avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı təmin etməlidir.[33]

22.4. Qeyri-müntəzəm sərnişin daşınması müvafiq formada tərtib edilən formulyar (sərnişinlərin siyahısı) ilə rəsmiləşdirilə bilər.

22.5. Avtomobil nəqliyyatı ilə yüklərin daşınması əmtəə-nəqliyyat qaiməsi və ya sifariş-tapşırıq ilə rəsmiləşdirilir. Həmin sənəd yükün daşındığı müddət ərzində sürücüdə saxlanılmalıdır.

Maddə 23. **Avtomobil nəqliyyatı ilə daşımaların marşrutu**

23.1. Avtomobil daşıyıcısı sərnişinləri və ya yükü müvafiq avtonəqliyyat vasitəsi üçün daşımanın sifarişçisi tərəfindən müəyyən olunmuş marşrut üzrə daşımalıdır. Marşrut müəyyən edilmədikdə avtomobil daşıyıcısı sərnişinləri və ya yükü ən qısa marşrut üzrə daşımalıdır.

23.2. Daşınmanın daha uzun marşrutla yerinə yetirilməsi məqsədəuyğun olduqda, avtomobil daşıyıcısı həmin marşrutu daşınmanın sifarişçisi ilə əvvəlcədən razılaşdırmalıdır.

23.3. Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları üzrə müntəzəm marşrutların müəyyən edilməsi və rəsmiləşdirilməsi qaydası "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə müəyyən olunur.

Maddə 24. **Avtonəqliyyat vasitələrinin daşınmanın sifarişçisinə təqdim olunması**

24.1. Daşıyıcı sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi üçün yararlı və saz vəziyyətdə olan avtonəqliyyat vasitəsini sifarişçiyə təqdim etməlidir.

24.2. Avtonəqliyyat vasitəsinin avtomobil daşınmasının sifarişçisinə təqdim edilməsi vaxtı avtonəqliyyat vasitəsinin sifarişçinin müəyyən etdiyi məntəqəyə gəldiyi və sürücü tərəfindən daşınmanın yerinə yetirilməsi üçün tələb edilən sənədlərin təqdim olunduğu vaxtdan hesablanır.

24.3. Avtomobil daşınmasının sifarişçisi müqavilə şərtlərinə uyğun olmayan və ya müvafiq avtomobil daşınmasının yerinə yetirilməsi üçün yararsız hesab etdiyi avtonəqliyyat vasitəsindən imtina etmək hüququna malikdir. Bu halda avtonəqliyyat vasitəsi sifarişçiyə təqdim olunmamış hesab edilir.

Maddə 25. **Avtomobil nəqliyyatı ilə daşımaların sığortalanması**

25.1. Avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən icbari və ya könüllü sığorta tətbiq olunur.

25.2. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilir.

25.3. Avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığortası "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilir.

25.4. Daşıyıcının avtonəqliyyat vasitəsinin, habelə bu Qanunun 53-cü, 54-cü və 55-ci maddələri ilə nəzərdə tutulmuş məsuliyyətinin sığortası könüllü qaydada həyata keçirilir.[34]

Maddə 26. **Avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin və ətraf mühitin mühafizəsinin təmin olunması**

26.1. Avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin təmin olunması aşağıdakı istiqamətlər üzrə tədbirlərin keçirilməsini nəzərdə tutur:

26.1.1. avtomobil nəqliyyatının təhlükəsiz və davamlı fəaliyyətinin, habelə ətraf mühitin mühafizəsinin təmin olunmasına yönəlmiş nəzarət, idarəetmə və hüquqi tənzimləmə;

26.1.2. yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına yönəlmiş proqramların hazırlanması və icrası.

26.2. Sərnişin və yük daşımaları ilə məşğul olan hüquqi və fiziki şəxslər daşımaların təhlükəsiz yerinə yetirilməsinə, ətraf mühitin mühafizəsinə dair Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının tələblərinə riayət etməlidirlər.

26.3. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşmalarını yerinə yetirən daşıyıcılar sərəncamlarında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasını, sürücülərinin reysqabağı tibbi müayinəsini müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təşkil etməlidirlər.

26.4. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı mövcud normativ hüquqi aktlar, texniki qaydalar və təlimatlar əsasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşmalarının təhlükəsizliyinə, habelə bu daşımalarda istifadə edilən avtonəqliyyat vasitələrinin istismarına və saxlanılmasına nəzarəti təmin edir.

## IV fəsil
## AVTOMOBİL NƏQLİYYATI İLƏ SƏRNİŞİN VƏ BAQAJ DAŞINMASI

Maddə 27. **Sərnişin avtomobil nəqliyyatı vasitələrinin sürücülərinə dair tələblər**

*27.1. Avtobuslarla sərnişin daşımalarına:* [35]

*27.1.1. "D" kateqoriyası və "D1" altkateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 23-dən az və 65-dən çox olmayan və "B", "C" kateqoriyalarına və ya "C1" altkateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi beş ildən az olmayan);* [36]

*27.1.1-1. "D1E" altkateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 25-dən az və 65-dən çox olmayan və "D" kateqoriyasına və ya "D1" altkateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi iki ildən az olmayan);* [37]

*27.1.2. "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 26-dan az və 65-dən çox olmayan və "D" kateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan) sürücülər buraxılır.*

27.2. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına B" və ya "BE" kateqoriyaları kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı *21-dən az olmayan, iki ildən artıq müddətdə mülkiyyətində və ya digər qanuni əsaslarla istifadəsində (icarə, etibarnamə və s.) olan avtonəqliyyat vasitəsini idarə edən* sürücülər buraxılır.[38]

27.3. Ümumi istifadədə olan *avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşə fəaliyyətinə və davranışına, habelə iş və istirahət rejiminin xüsusiyyətlərinə* dair təsdiq olunmuş xüsusi proqram üzrə hazırlıq keçməli, habelə avtomobil nəqliyyatı ilə *yük və sərnişin daşımalarını* tənzimləyən normativ hüquqi aktlar barədə zəruri biliklərə malik olmalıdırlar. *Taksi minik avtomobillərinin sürücüləri etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını*

*tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər. Taksi minik avtomobillərinin sürücüləri üçün xüsusi hazırlığın keçirilməsi qaydası, proqramı və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Xüsusi hazırlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və keçirilir.*[39]

Maddə 28. **Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi**

28.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinə görə daşıyıcı, sərnişini və onun baqajını yola düşmə yerindən təyinat məntəqəsinə çatdırmağı, sərnişin isə daşınma haqqını ödəməyi öhdəsinə götürür.

28.2. Müntəzəm marşrutlar üzrə avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinin bağlanması sərnişinə verilmiş bilet və baqaj qəbzi ilə*, yaxud gediş haqqının ödəniş alətindən istifadə etməklə ödənilməsi ilə* təsdiq olunur.[40]

28.3. Gediş sənədlərinin (biletlərin) *və ödəniş alətinin* sərnişinlərə satışı*, o cümlədən ödəniş alətinə vəsaitin yüklənilməsi imkanı* daşıyıcı və ya avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı tərəfindən təşkil edilə bilər.[41]

28.4. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 29. **Sərnişin avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi**

29.1. Sərnişin daşınması icarə (fraxtetmə) müqaviləsi əsasında yerinə yetirildikdə, daşıyıcı hüquqi və ya fiziki şəxslərin sifarişinə əsasən bir və ya bir neçə avtonəqliyyat vasitəsini haqqı sifarişçi tərəfindən ödənilmək şərti ilə bir və ya bir neçə reys üçün onlara təqdim etmək öhdəliyini üzərinə götürür.

29.2. Sərnişin avtonəqliyyat vasitələrinin icarəsi (fraxtetmə) müqaviləsinin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 30. **Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə**

30.1. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə əsasında daşımanın təşkilatçısı sifarişçinin tapşırığı ilə və onun hesabına sərnişinin və onun baqajının özü tərəfindən və ya üçüncü şəxslər (avtomobil nəqliyyatı ilə daşıyıcılar) vasitəsilə təyinat məntəqəsinə çatdırılmasını təşkil edir.

30.2. Müntəzəm və qeyri-müntəzəm marşrutlarda avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi üçün hüquqi və fiziki şəxs (daşınmanın sifarişçisi) daşıyıcı və ya daşınmanın təşkilatçısı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə bağlaya bilər.

30.3. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilədə daşınmanın marşrutu, qrafiki və cədvəli, istifadə olunacaq avtonəqliyyat vasitəsinin növü və ona dair tələblər, daşınma xidmətlərinin siyahısı, gediş haqqının məbləği və onun ödənilməsi qaydası, avtomobil nəqliyyatı ilə daşımaların həcmi və buna görə hesablaşma qaydası və digər şərtlər müəyyən edilə bilər.

30.4. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilənin əsasında sərnişin daşınması müqaviləsi bağlanıla bilər.

30.5. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilədə digər qayda nəzərdə tutulmamışdırsa, gediş haqqı sərnişin tərəfindən müəyyən olunmuş tariflər üzrə ödənilir.

Maddə 31. **Sərnişinin əsas hüquqları**

31.0 Sərnişin aşağıdakı əsas hüquqlara malikdir:

31.0.1. marşrut üzrə gediş bileti əldə etmək *(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)*, avtonəqliyyat vasitəsinin salonunda biletdə göstərilmiş yeri, biletdə yer göstərilmədikdə*, yaxud gediş haqqı ödəniş aləti vasitəsilə ödənildikdə* boş yeri tutmaq və gedişi həyata keçirmək;[42]

*31.0.1-1. ödəniş aləti əldə etmək və ona vəsait yükləmək;*[43]

31.0.2. müntəzəm avtobus marşrutlarında *(şəhərdaxili (rayondaxili) avtobuslar istisna olmaqla)* ayrıca yer tutmadan, gediş haqqı ödəmədən 5 yaşına qədər bir uşağı özü ilə aparmaq;[44]

*31.0.2-1. müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında gediş haqqı ödəmədən 5 yaşa qədər uşaqları özü ilə aparmaq;*[45]

31.0.3. müvafiq normalar həddində özü ilə ödənişsiz əl yükünü aparmaq;

31.0.4. çəkisi və ölçüləri müəyyən edilmiş normalardan artıq olmayan baqaj aparmaq;

31.0.5. real dəyərindən yüksək olmamaqla baqajın qiymətini elan etmək;

31.0.6. daşınma üçün təqdim olunan avtonəqliyyat vasitəsilə gediş tarifi alınmış gediş sənədinin (biletin) qiymətindən yüksək olarsa, gedişi əvvəl əldə olunmuş gediş bileti ilə əlavə pul ödəmədən həyata keçirmək;

31.0.7. daşıyıcı daşınma haqqı sərnişinin aldığı gediş sənədinin (biletin) qiymətinə nisbətən aşağı olan avtonəqliyyat vasitəsi istifadə edərsə, gediş sənədini (bileti) qaytarmaq və ya gediş üçün faktiki ödədiyi məbləğlə bu halda ödənilməli məbləğ arasındakı fərqi geri alaraq gedişi həyata keçirmək;

31.0.8. “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunmuş qaydada gediş sənədini (bileti) geri qaytarmaq və ödənilmiş pulun tam məbləğini və ya müvafiq hissəsini geri almaq;

31.0.9. daşıyıcının təqsiri üzündən vurulmuş zərərə və ziyana görə kompensasiya almaq;

31.0.10. sığorta olunanın “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş hüquqlarından istifadə etmək.[46]

Maddə 32. **Sərnişinin əsas vəzifələri**

32.0. Sərnişinin əsas vəzifələri aşağıdakılardır:

32.0.1. “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”na, habelə sərnişin daşımalarını tənzimləyən digər normativ hüquqi aktların tələblərinə riayət etmək, daşıyıcı ilə bağlanmış müqavilənin şərtlərini yerinə yetirmək;

32.0.2. öz təqsiri üzündən daşıyıcıya və digər şəxslərə vurulmuş zərərin əvəzini ödəmək;

32.0.3. gediş sənədini (bileti) almaq *(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)*, gediş haqqını vaxtında və tam həcmdə ödəmək və gediş müddətində gedişə hüquq verən müvafiq sənədlərə *(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)* malik olmaq;[47]

32.0.4. müəyyən edilmiş hallarda baqaj və əl yükünün daşınmasına görə daşınma haqqını ödəmək.

Maddə 33. **Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi ilə əlaqədar daşıyıcının əsas hüquqları**

33.0. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən daşıyıcı aşağıdakı əsas hüquqlara malikdir:

33.0.1. “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə və daşınma müqaviləsinin şərtlərinə riayət edilməsini sərnişindən tələb etmək;

33.0.2. avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına görə daşınma haqqını almaq;

33.0.3. qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, daşınma haqqını təyin etmək;

33.0.4. sərnişinin təqsiri üzündən vurulmuş zərərin ödənilməsini Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və müqavilə şərtlərinə uyğun olaraq ondan tələb etmək;

33.0.5. bu Qanunun 36-cı maddəsində nəzərdə tutulmuş hallarda sərnişin daşınması üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməsindən imtina etmək;

33.0.6. “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Maddə 34. **Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən daşıyıcının əsas vəzifələri**

34.0. Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi ilə əlaqədar daşıyıcının əsas vəzifələri aşağıdakılardır:

34.0.1. sərnişin və baqaj daşımalarını “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”na, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq yerinə yetirmək;

34.0.2. sərnişinlərin hüquqlarının təmin olunmasını və “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda və qaydada sərnişinlərin icbari sığortalanmasını təşkil etmək;[48]

34.0.3. daşınmanın şərtləri və yerinə yetirilməsi qaydaları haqqında sərnişinlərə zəruri məlumatlar vermək;

34.0.4. yol hərəkətinin və daşımaların təhlükəsizliyini təmin etmək, ekoloji və sanitar normalara riayət etmək;

34.0.5. daşınma üzrə öhdəlikləri icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq sərnişinlərə vurulmuş ziyanın əvəzini və zərəri ödəmək;

34.0.6. texniki və ya digər səbəblərdən, o cümlədən, öz təqsiri üzündən daşınma dayandırıldıqda, öz hesabına sərnişinlərin təyinat məntəqəsinə çatdırılmasını təmin etmək.

Maddə 35. **Avtomobil nəqliyyatı ilə baqaj daşınması**

35.1. Daşıyıcı daşınma üçün qəbul edilmiş baqaja görə sərnişinə baqaj qəbzi verməlidir.

35.2. Daşıma başa çatdıqdan sonra baqaj sərnişinə və ya baqajı almaq səlahiyyəti olan şəxsə baqaj qəbzi təqdim edildikdə verilir.

35.3. Tələb olunmamış baqaj daşıyıcıda saxlanılır. 30 gün keçdikdən sonra tələb olunmamış baqaj “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunmuş qaydada satıla bilər.

35.4. Baqajın satılmasından sonrakı altı ay ərzində sərnişin və ya baqaj qəbzini təqdim edən şəxs onun satışı ilə əlaqədar çəkilmiş xərclər çıxılmaqla, baqajın satılmasından daşıyıcının əldə etdiyi məbləği almaq hüququna malikdir.

Maddə 36. **Daşıyıcının avtomobil nəqliyyatı ilə sərnişin daşımasından imtina etməsi**

36.0. Aşağıdakı hallarda avtomobil daşıyıcısının sərnişinləri daşımaqdan imtina etmək hüququ vardır:

36.0.1. sərnişin avtonəqliyyat vasitəsində boş yer olmadıqda;

36.0.2. sərnişin ictimai asayiş qaydalarını pozduqda;

36.0.3. sərnişinin xəstə və ya sərxoş vəziyyətdə olması digər sərnişinlər üçün narahatlıq yaratdıqda;

36.0.4. sərnişin daşınması qadağan edilmiş əşyaların və maddələrin olduğu baqajı və ya əl yükünü aparmaq niyyətində olduqda;

36.0.5. sərnişin baqajın daşınmasına görə haqqı ödəmədikdə;

36.0.6. sərnişində olan gediş sənədinin (biletin) yerinə yetirilən avtomobil daşınmasına uyğunsuzluğu aşkar edildikdə*, yaxud sərnişin gediş haqqını müəyyən edilmiş qaydada ödəmədikdə*;[49]

36.0.7. "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə gediş haqqının bilavasitə daşınma prosesində ödənilməsi nəzərdə tutulduğu hallarda sərnişin gediş haqqını ödəmədikdə və ya tam ödəmədikdə;

36.0.8. sərnişin "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"na əməl olunması barədə sürücünün və ya digər səlahiyyətli şəxsin qanuni tələblərini yerinə yetirməkdən imtina etdikdə.

## V fəsil
## AVTOMOBİL NƏQLİYYATI İLƏ YÜK DAŞINMASI

Maddə 37. **Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi**

37.1. Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinə görə avtomobil daşıyıcısı yükgöndərən tərəfindən ona tapşırılmış yükü təyinat məntəqəsinə çatdırmağı və onu yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil verməyi, yükgöndərən isə, müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, yükün daşınmasına görə müəyyən olunmuş daşınma haqqını ödəməyi öhdəsinə götürür.

37.2. Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 38. **Yük daşınması üçün avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi**

38.1. Yük daşınması üçün avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsinə görə daşıyıcı hüquqi və ya fiziki şəxslərin (daşınmanın sifarişçisinin) sifarişi ilə haqqı ödənilməklə yük daşınması üçün yararlı olan bir və ya bir neçə avtonəqliyyat vasitəsinin tutumunu bütövlükdə və ya qismən bir və ya bir neçə reys üçün digər tərəfə vermək öhdəliyini üzərinə götürür.

38.2. Yük daşınması üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitəsinin icarəsi haqqında müqavilənin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 39. **Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə**

39.1. Avtomobil nəqliyyatı ilə mütəmadi yük daşınmasının yerinə yetirilməsi zərurəti yarandıqda, daşınmanın sifarişçisi (yükgöndərən, avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı) yük daşınmasının təşkili haqqında daşıyıcı ilə uzunmüddətli müqavilə bağlaya bilər.

39.2. Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqaviləyə əsasən daşıyıcı yükü müəyyən olunmuş müddətdə qəbul etməli, yükgöndərən isə şərtləşdirilmiş həcmdə yükü daşınmaq üçün təqdim etməlidir.

39.3. Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilədə daşımaların həcmi, müddəti, marşrutu, qrafiki, istifadə olunacaq avtonəqliyyat vasitələrinin növü, daşınma ilə əlaqədar digər xidmətlərin siyahısı, yük daşınması üçün avtonəqliyyat vasitələrinin və yükün daşıyıcıya təqdim edilməsinin şərtləri, hesablaşmaların qaydası, tərəflərin məsuliyyəti, yük daşınmasının təşkilinin digər şərtləri müəyyən edilir.

39.4. Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə yükgöndərən və yük daşınmasının təşkilatçısı arasında bağlana bilər.

39.5. Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə yük daşınması müqaviləsinin və icarə (fraxtetmə) müqaviləsinin bağlanması zəruriliyini istisna etmir.

Maddə 40. **Avtomobil nəqliyyatı ilə yük daşınmasının rəsmiləşdirilməsi**

40.1. Avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin daşınması əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilir. Əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməmiş əmtəə təyinatlı yüklər daşınma üçün qəbul edilə bilməz.

40.2. Əmtəə-nəqliyyat qaiməsi Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunmuş formada tərtib edilir. Yük daşıma müqaviləsində başqa qayda nəzərdə tutulmamışdırsa, əmtəə-nəqliyyat qaiməsi yükgöndərən tərəfindən tərtib edilir.

40.3. Əmtəə-nəqliyyat qaiməsində aşağıdakılar göstərilir:

40.3.1. yük alanın ünvanı;

40.3.2. yükün çatdırılma yeri;

40.3.3. yük yerlərinin miqdarı, qabı, tərkibi və brutto çəkisi;

40.3.4. yükün göndərilmə vaxtı və avtonəqliyyat vasitəsinin növü;

40.3.5. yük qiymətli obyekt olduqda – onun dəyəri;

40.3.6. xüsusi təhlükəli və potensial təhlükəli yük olduqda - təhlükənin konkret növü və belə hallarda yerinə yetirilməli ehtiyat tədbirləri;

40.3.7. qaimənin tərtib edildiyi yer və tarix;

40.3.8. yükgöndərənin adı və ünvanı;

40.3.9. daşıyıcının adı və ünvanı;

40.3.10. yükləmənin yeri və tarixi;

40.3.11. yük yerlərinin adı və nömrələri;

40.3.12. daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərclər);

40.3.13. zərurət olduqda, daşımanın şərtləri barəsində yükgöndərənin xüsusi göstərişləri.

40.4. Zəruri hallarda əmtəə-nəqliyyat qaiməsində aşağıdakı məlumatlar göstərilə bilər:

40.4.1. yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;

40.4.2. tərəflərin öz üzərinə götürdükləri və ya bir-birinə verdiyi avansın məbləğləri;

40.4.3. yük alanın daşıyıcıya ödədiyi məbləğ;

40.4.4. yükün dəyəri;

40.4.5. yükün sığortalanmasına dair yükgöndərənin göstərişi;

40.4.6. yükün daşınması üçün şərtləşdirilmiş müddətlər;

40.4.7. daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

40.5. Yük daşınması müqaviləsinin tərəfləri zəruri hesab etdikləri digər məlumatları əmtəə-nəqliyyat qaiməsinə daxil edə bilərlər.

40.6. Beynəlxalq avtomobil yük daşımaları yerinə yetirilərkən beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsi tərtib olunur.

40.7. Qeyri-əmtəə təyinatlı yüklərin, o cümlədən torpaq və qar kütləsinin, məişət və digər tullantıların daşınması ölçmə aktı və ya tərəzidə çəkmə aktı ilə rəsmiləşdirilə bilər. Bu cür aktların tərtib edilməsi, habelə qeyri-əmtəə təyinatlı yüklərin qəbul edilməsi və təhvil verilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir.

40.8. Avtomobil nəqliyyatı ilə əhalinin yüklərinin daşınması əmtəə-nəqliyyat qaiməsi və ya sifariş-tapşırıqla rəsmiləşdirilə bilər. Avtomobil nəqliyyatı ilə əhalinin yüklərinin daşınması "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"na əsasən təşkil olunur və yerinə yetirilir.

Maddə 41. **Yük müşayiətedici digər sənədlər**

41.1. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş yük müşayiətedici digər sənədlər tələb olunduğu hallarda (uyğunluq sertifikatı, baytarlıq və fitosanitar sertifikatı, malın mənşə sertifikatı) əvvəlcədən rəsmiləşdirilərək yükgöndərən tərəfindən əmtəə-nəqliyyat qaiməsinə əlavə olunmalıdır.

41.2. Daşıyıcı yük müşayiətedici əlavə sənədlərin düzgünlüyünü yoxlamaq vəzifəsini daşımır.

41.3. Yük müşayiətedici əlavə sənədlərdən lazımi qaydada istifadə etmədikdə və ya həmin sənədlər itirildikdə əmlak məsuliyyəti daşıyıcının üzərinə qoyulur.

Maddə 42. **Yükün daşınma üçün hazırlanması və təqdim edilməsi**

42.1. Avtonəqliyyat vasitəsi daşıyıcı və ya daşımanın təşkilatçısı tərəfindən təqdim edilənədək yükgöndərən yükü yüklənmək üçün hazırlamalı və müəyyən olunmuş tələblərə uyğun olaraq onu daşınma üçün təqdim etməlidir.

42.2. "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın tələbləri və avtomobil daşınması müqaviləsinin şərtləri pozulmaqla daşınma üçün təqdim edilmiş yük təqdim edilməmiş hesab olunur. Bu halda yükgöndərən yük daşınması müqaviləsinə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq avtonəqliyyat vasitəsinin yüklənmək üçün təqdim edilməsi ilə bağlı daşıyıcıya vurulmuş zərəri ödəməlidir.

42.3. Yükgöndərənin yükü onun həqiqi dəyərindən artıq olmayan məbləğdə elan olunmuş qiymətlə daşınmaq üçün təqdim etmək hüququ vardır.

42.4. Müxtəlif növ yüklərin daşınma üçün hazırlanması və təqdim edilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 43. **Yükün daşınma üçün qəbul edilməsi**

43.1. Daşıyıcı yükü daşınma üçün qəbul edərkən əmtəə-nəqliyyat qaiməsinin rəsmiləşdirilməsinin düzgünlüyünü, yükün xarici görünüşünü, onun qablaşdırılmasını, yükün sayını və zəruri hallarda onun temperaturunu yoxlamalıdır.

43.2. Sistern və konteynerlərdə yaxud qalaq və füruş şəkildə olan yüklər daşınma üçün qəbul edildikdə, onların ümumi çəkisi müəyyən edilməli və əmtəə-nəqliyyat qaiməsində göstərilməlidir.

43.3. Yükün ümumi çəkisi və yük yerlərinin sayı yükgöndərən və daşıyıcı tərəfindən birlikdə müəyyən edilir və yoxlanılır.

43.4. Müxtəlif növ yüklərin ümumi çəkisinin müəyyən edilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir.

43.5. Sürücü tərəfindən əmtəə-nəqliyyat qaiməsinin imzalanmış nüsxəsi yükgöndərənə verildikdən sonra yük daşınma üçün qəbul edilmiş hesab olunur.

43.6. Əmtəə-nəqliyyat qaiməsinə müvafiq qeydlər edilməmişdirsə, daşınma üçün qəbul edildiyi anda yük və onun qablaşdırılması lazımi vəziyyətdə, yükün ümumi çəkisi, yük yerlərinin sayı və markalanması isə əmtəə-nəqliyyat qaiməsində olan göstəricilərə uyğun olduğu kimi hesab edilir.

43.7. Yük daşınması müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, yükləmə yükgöndərən tərəfindən həyata keçirilir.

43.8. Avtonəqliyyat vasitələrinin yüklənməsi üçün müəyyən edilmiş normalara riayət edilməsi, habelə avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin və yükün qorunub saxlanmasının təmin edilməsi məqsədi ilə daşıyıcı yükün düzgün yerləşdirilməsinə və bərkidilməsinə nəzarət etməlidir.

43.9. Daşıyıcının göstərişi ilə yükgöndərən yükün yerləşdirilməsində və bərkidilməsində yol verilmiş pozuntuları aradan qaldırmalıdır.

43.10. Beynəlxalq daşımalar istisna olmaqla, yük daşınması üçün qapalı yük yerləri ilə təchiz edilmiş avtonəqliyyat vasitələri və ya digər nəqliyyat avadanlığı istifadə edildikdə, yükün yükgöndərən tərəfindən plomblanmasına yol verilir. Bu haqda əmtəə-nəqliyyat qaiməsində müvafiq qeyd edilməlidir. Yükün plomblanması qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir.

43.11. Avtomobil nəqliyyatı ilə yükün daşınma üçün qəbul edilməsinin digər şərtləri Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Maddə 44. **Yükün yükalana təhvil verilməsi**

44.1. Daşıyıcı yükü təyinat məntəqəsində yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə yük yerlərinin sayına və (və ya) yükün ümumi çəkisinə uyğun olaraq təhvil verir.

44.2. Qalaq və ya füruş şəkildə, yaxud avtomobil sisternində daşınan yüklərdə çatışmazlıq əlamətləri yoxdursa və yükalanda bu çatışmazlığı müəyyən etmək üçün lazımi vasitələr olmadıqda, həmin yüklər ümumi çəkisi yoxlanılmadan yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil verilir.

44.3. Beynəlxalq daşımalar istisna olmaqla, qeyri-əmtəə təyinatlı yük daşındıqda, daşıyıcı onu yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil vermək vəzifəsindən yükgöndərən tərəfindən azad oluna bilər. Bu halda daşıyıcının üzərinə həmin yükü yükgöndərən tərəfindən müəyyən edilmiş yerdə boşaltmaq vəzifəsi qoyulur.

44.4. Yükün çəkisi tərəzi vasitəsilə müəyyən edildikdə, əmtəə-nəqliyyat qaiməsində göstərilən yükün çəkisi ilə onun faktiki çəkisi arasında olan fərq təbii azalma normasını və ya tərəzidə çəkilmə dəqiqliyini keçmirsə, daşıyıcı yükün çəkisinin fərqinə görə məsuliyyət daşımır.

44.5. Yükün təhvil alınması yükalan tərəfindən əmtəə-nəqliyyat qaiməsində imza edilməklə və yükalan möhürə (ştampa) malik olduqda, möhür (ştamp) vurulmaqla təsdiq olunur.

Maddə 45. **Yükalanın yükü almaqdan imtina etməsi və ya başqa ünvana çatdırılması haqda tələbi**

45.1. Yükün xarab olması və zədələnməsi ilə əlaqədar xüsusiyyətlərini dəyişməsi nəticəsində ondan təyinatı üzrə tam və ya qismən istifadə etmək mümkün olmadıqda, yükalan yükü almaqdan imtina edə bilər.

45.2. Yükalan yükü almaqdan imtina, yaxud onun başqa ünvana çatdırılmasını tələb etdikdə, bu haqda əmtəə-nəqliyyat qaiməsində müvafiq qeyd etməlidir.

45.3. Yükalan yükü almaqdan imtina etdikdə, müqavilədə digər hal nəzərdə tutulmamışdırsa daşıyıcı bu yük barəsində yükgöndərənin yazılı göstərişlərini almalıdır.

45.4. Yükalan yükü almaqdan imtina etdikdə, yükün saxlanılması, satılması, yükgöndərənə geri qaytarılması və ya yeni ünvana çatdırılmasına görə daşıyıcının çəkdiyi əlavə xərcləri yükgöndərən ödəməlidir.

Maddə 46. **Yükün yüklənməsi, çatdırılması və boşaldılması müddətləri**

46.1. Avtonəqliyyat vasitəsinin yükləmə altında olduğu müddət onun daşıyıcı tərəfindən yüklənmək üçün verildiyi vaxtdan hesablanır.

46.2. Avtonəqliyyat vasitəsinin boşaldılma altında olduğu müddət yükün boşaldılma yerində onun sürücüsü tərəfindən əmtəə-nəqliyyat qaiməsinin yükalana təqdim edildiyi vaxtdan hesablanır.

46.3. Yüklənən və ya boşaldılan yük barəsində lazımi qaydada rəsmiləşdirilmiş əmtəə-nəqliyyat qaiməsi və bütün digər zəruri sənədlər avtonəqliyyat vasitəsinin sürücüsünə təqdim edildikdə, yükləmə və ya boşaltma başa çatmış hesab olunur.

46.4. Avtonəqliyyat vasitəsinin yükləmə və boşaldılma yerlərinə gəlməsi və çıxması vaxtı barədə yükgöndərən və yükalan əmtəə-nəqliyyat qaiməsində müvafiq qeyd etməlidirlər.

46.5. Yükləmə, çatdırılma və boşaldılma müddətləri, o cümlədən yükləmə və boşaldılma ilə əlaqədar digər əməliyyatların yerinə yetirilməsi müddəti Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları, o cümlədən "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları", həmçinin avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi ilə müəyyən edilir.

Maddə 47. **Avtomobil nəqliyyatı ilə təhlükəli yüklərin daşınması**

47.1. Avtomobil nəqliyyatı ilə daşımalar zamanı partlayışa və (və ya) yanğına, insanların və (və ya) heyvanların tələfatına, xəstələnməsinə, xəsarət almasına, zəhərlənməsinə, şüalanmasına səbəb ola bilən, habelə nəqliyyat vasitələrinin, tikililərin və digər infrastruktur obyektlərinin zədələnməsinə gətirib çıxaran və (və ya) ətraf mühitə ziyan vurma xüsusiyyətlərinə və güclü təsirə malik maddələr, materiallar, məhsullar və tullantılar təhlükəli yüklər hesab edilir.

47.2. Bu cür daşımalar zamanı yükgöndərən əmtəə-nəqliyyat qaiməsində təhlükəli yük barədə məlumatları göstərməlidir.

47.3. Təhlükəli yüklərin daşınması qaydası Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq müəyyən edilir.

Maddə 48. **Avtomobil nəqliyyatı ilə iriqabaritli və ağırçəkili yüklərin daşınması**

48.1. Yükünün qabaritləri və çəkisi, yaxud texniki göstəriciləri müvafiq normativlərlə müəyyənləşdirilmiş məhdudiyyətlərdən kənara çıxan avtonəqliyyat vasitələrinin ümumi istifadədə olan yollarla, o cümlədən, yaşayış məntəqələrinin küçələri ilə hərəkətinə əvvəlcədən təyin edilmiş xüsusi marşrut üzrə, müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında yol verilir.

48.2. Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi, onların hərəkətinə xüsusi icazənin verilməsi qaydası, habelə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri və ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 49. **Qarışıq yük daşımalarının yerinə yetirilməsi**

49.1. Ən azı iki nəqliyyat növündən istifadə edilməklə, bütün hərəkət yolu (göndərilmə məntəqəsindən təyinat məntəqəsinədək) üçün tərtib edilmiş vahid nəqliyyat sənədi əsasında yerinə yetirilən sərnişin və yük daşımaları qarışıq daşımalar hesab olunur.

49.2. Qarışıq yük daşınmasının yerinə yetirilməsi üçün daşıyıcılar digər nəqliyyat növləri ilə daşıyıcılarla və ya daşımaların təşkilatçıları ilə Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına uyğun olaraq yük daşımalarının təmin edilməsi haqqında müqavilələr bağlayırlar.

VI fəsil

## AVTOMOBİL NƏQLİYYATI İLƏ BEYNƏLXALQ DAŞIMALAR

Maddə 50. **Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili**

50.1. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları, o cümlədən tranzit daşımaları Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq *operator tərəfindən* yerinə yetirilir. *Operator işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, operatorun sürücüsü (sürücüləri) isə hazırlıq səviyyəsinə dair tələblərə cavab verməlidir.*[50]

50.2. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinin Azərbaycan Respublikasının ərazisində yerinə yetirilməsini müvafiq icra hakimiyyəti orqanı aidiyyəti dövlət orqanları ilə birlikdə təmin edir.

50.3. Barəsində icazə sistemi tətbiq edilən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq daşımalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən "İcazə" blankları əsasında yerinə yetirilir.

50.4. Azərbaycan Respublikasının ərazisində xarici avtomobil *daşıyıcıları* tərəfindən ölkədaxili daşımalarının yerinə yetirilməsinə yol verilmir. [51]

*50.5. Operatorun məsul şəxsi (şəxsləri), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidir. Hazırlığın keçirilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Hazırlıq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil edilir və keçirilir. Tədrisin nəticələrinə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş sənəd verilir.*[52]

*50.6. Operatorun işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlar, sürücülərin hazırlıq səviyyəsinə dair tələblər, habelə operatorların uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış qaydaları ilə müəyyən edilir.* [53]

Maddə 51. **Avtonəqliyyat vasitələrinin, yüklərin və baqajın (əl yükünün) Azərbaycan Respublikasının gömrük sərhədindən keçməsi**

Avtonəqliyyat vasitələri, yüklər və baqaj (əl yükü) Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük işinə dair və digər normativ hüquqi aktlarına uyğun olaraq keçirilir.

VII fəsil

## AVTOMOBİL NƏQLİYYATININ FƏALİYYƏTİ SAHƏSİNDƏ MƏSULİYYƏT

Maddə 52. **Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsindən irəli gələn öhdəliklərə görə məsuliyyət**

52.1. Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsindən və daşınma ilə əlaqədar mülki qanunvericiliklə nəzərdə tutulmuş digər müqavilələrdən irəli gələn öhdəliklərin icra edilməməsinə və ya lazımi qaydada icra edilməməsinə görə müqavilə üzrə tərəflər bu Qanunla, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

52.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, avtomobil nəqliyyatı ilə daşınma müqaviləsi üzrə qanunvericiliklə müəyyən edilmiş məsuliyyətin məhdudlaşdırılması yaxud aradan qaldırılması barədə tərəflərin razılaşması etibarsızdır.

Maddə 53. **Avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsinə görə daşıyıcının məsuliyyəti**

53.1. Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsinə uyğun olaraq avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsinə və ya vaxtlı-vaxtında verilməməsinə görə daşıyıcı Azərbaycan Respublikasının qanunvericiliyi, habelə tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

53.2. Avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsi və ya vaxtlı-vaxtında verilməməsi qarşısıalınmaz qüvvənin təsiri və ya səlahiyyətli dövlət orqanları tərəfindən müəyyən istiqamətdə avtomobil nəqliyyatı ilə daşımaların məhdudlaşdırılması, yaxud dayandırılması nəticəsində baş verdikdə, daşıyıcı məsuliyyətdən azad olunur.

Maddə 54. **Yükün və ya baqajın qorunub saxlanılmamasına və əl yükünün zədələnməsinə görə avtomobil daşıyıcısının məsuliyyəti**

54.1. Yükün və ya baqajın daşınma üçün qəbul edildiyi vaxtdan yükalana, sərnişinə və ya digər səlahiyyətli şəxsə təhvil veriləndək itirilməsinin, əskik çıxmasının və ya zədələnməsinin (xarab olmasının) daşıyıcının təqsiri olmadan baş verdiyi sübut edilmədikdə, daşıyıcı məsuliyyət daşıyır.

54.2. Daşıyıcı yükün və ya baqajın avtomobil nəqliyyatı ilə daşınması zamanı vurulmuş zərəri aşağıdakı miqdarda ödəyir:

54.2.1. yük və ya baqaj itirildikdə, yaxud əskik çıxdıqda - müvafiq olaraq itirilmiş, yaxud əskik çıxmış yükün və ya baqajın dəyəri miqdarında;

54.2.2. yük və ya baqaj zədələndikdə (xarab olduqda) - onun dəyərinin azaldığı miqdarda, zədələnmiş yükü bərpa etmək mümkün olmadıqda isə, onun tam dəyəri miqdarında;

54.2.3. qiyməti elan olunmaqla avtomobil nəqliyyatı ilə daşınmaq üçün təhvil verilmiş yük və ya baqaj itirildikdə - həmin yük və ya baqajın elan olunmuş qiyməti miqdarında. Daşıyıcı həmin yükün və ya baqajın həqiqi dəyərinin elan olunmuş qiymətdən aşağı olduğunu sübut etdikdə isə - yükün və ya baqajın həqiqi dəyəri miqdarında.

54.3. Yükün və ya baqajın həqiqi dəyərinin müəyyən edilməsi üçün onların daşınma müqaviləsində yaxud hesablaşma sənədində göstərilmiş qiyməti əsas götürülür. Daşınma müqaviləsində yükün və ya baqajın qiyməti müəyyən edilmədikdə, yaxud hesablaşma sənədi olmadıqda isə, analoji malların mövcud bazar qiyməti əsas kimi götürülür.

54.4. Daşıyıcı yükün və ya baqajın itirilməsi, əskik çıxması və ya zədələnməsi (xarab olması) ilə əlaqədar müəyyən edilmiş zərəri ödəməklə yanaşı, həmin yükün və ya baqajın daşınmasına görə alınmış daşınma haqqını da (daşınma haqqı yükün və ya baqajın dəyərinə daxil olmadıqda) yükgöndərənə (yükalana), sərnişinə və ya səlahiyyəti olan digər şəxsə qaytarır.

Maddə 55. **Sərnişin avtonəqliyyat vasitəsinin yola düşməsinin ləngidilməsi və ya təyinat məntəqəsinə çatmasının gecikdirilməsinə görə avtomobil daşıyıcısının məsuliyyəti**

55.1. Avtobusun yola düşməsinin, yaxud təyinat məntəqəsinə çatmasının gecikdirilməsinin (şəhərdaxili daşımalar istisna olmaqla) qarşısıalınmaz qüvvənin təsiri nəticəsində və ya daşıyıcıdan asılı olmayan digər səbəblərdən baş verdiyi sübut olunmadıqda, daşıyıcı "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə müəyyən olunmuş qaydada və məbləğdə sərnişinə dəbbə pulunu ödəyir.

55.2. Avtonəqliyyat vasitəsinin ləngiməsi səbəbindən sərnişinin daşımadan imtina etdiyi hallarda daşıyıcı (avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı) daşınma haqqını tam məbləğdə sərnişinə geri qaytarmalıdır.

Maddə 56. **Sərnişinin həyatına və ya sağlamlığına vurulmuş zərərə görə avtomobil daşıyıcısının məsuliyyəti**

56.1. Avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən sərnişinlərin həyatına və ya sağlamlığına vurulmuş zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin təqsiri nəticəsində baş verdiyini sübut edə bilmədikdə, daşıyıcı vurulmuş zərərə görə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq maddi məsuliyyət daşıyır.

56.2. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqavilələrində sərnişinin həyatına və ya sağlamlığına vurulmuş zərərə görə daşıyıcının daha yüksək maddi məsuliyyəti nəzərdə tutula bilər.

Maddə 57. **Avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi ilə əlaqədar sifarişçinin daşıyıcı qarşısında məsuliyyəti**

57.1. Daşımanın sifarişçisi avtomobil nəqliyyatı ilə daşınma müqaviləsinin şərtlərinin pozulmasına, təqdim edilmiş avtonəqliyyat vasitəsindən vaxtlı-vaxtında istifadə edilməməsinə görə daşıyıcı qarşısında müvafiq qanunvericiliklə və tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

57.2. Sifarişçi onun təqsiri üzündən avtomobil daşıyıcısına, habelə daşıyıcının məsuliyyət daşıdığı digər şəxslərin əmlakına vurduğu zərərə görə məsuliyyət daşıyır.

57.3. Yük müşayiətedici sənədlərdə göstərilmiş düzgün olmayan, qeyri-dəqiq yaxud dolğun olmayan məlumatlarla əlaqədar və ya zəruri yük müşayiətedici sənədlərin olmaması səbəbindən daşıyıcıya və üçüncü şəxslərə vurulmuş zərərə görə məsuliyyəti yükgöndərən daşıyır.

57.4. Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsi üzrə öhdəliklərin icra edilməməsi və ya lazımi qaydada icra edilməməsi qarşısıalınmaz qüvvənin təsiri, müəyyən istiqamətlərdə daşımaların dayandırılması, yaxud məhdudlaşdırılması səbəbindən, habelə ondan asılı olmayan digər hallarda baş verdikdə, sifarişçi məsuliyyətdən azad olunur.

*Maddə 57-1.* ***Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarında taxoqrafdan istifadə ilə bağlı daşıyıcıların və sürücülərin vəzifələri***[54]

*Beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını təşkil edən daşıyıcılar həmin daşımaları həyata keçirən yük avtonəqliyyat vasitələrini və ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər. Həmin daşımaları təşkil edən daşıyıcılar və yerinə yetirən sürücülər müvafiq daşımaların taxoqraf olmadan, habelə taxoqrafın yoxlanması haqqında şəhadətnamə və ya müvafiq möhür olmadan, yaxud yoxlanma müddəti bitmiş və ya plomblanması pozulmuş, tamamilə və ya hər hansı funksiyası işləməyən taxoqrafla, taxoqrafın*

*qeydiyyata aldığı məlumatlar saxtalaşdırılmaqla yerinə yetirilməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*

Maddə 58. **Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları ilə əlaqədar pretenziyalar**[55]

58.1. Müqavilənin tərəfləri avtomobil nəqliyyatı ilə daşımalarla bağlı məhkəmədə iddia qaldırmazdan əvvəl "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilmiş qaydada və müddətlərdə pretenziya verməlidirlər.

~~58.2. Avtomobil nəqliyyatı ilə yük daşınması müqavilələrindən irəli gələn tələblər üzrə iddia müddəti 1 ildir.~~[56]

~~58.3. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqavilələrindən irəli gələn tələblər üzrə iddia müddəti 6 aydır.~~

## VIII fəsil
## AVTOMOBİL NƏQLİYYATI SAHƏSİNDƏ DÖVLƏT NƏZARƏTİ

Maddə 59. **Avtomobil nəqliyyatı ilə daşımalara dair qayda və tələblərə riayət edilməsinə dövlət nəzarətinin təşkili**

Avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə nəzarət *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən həyata keçirilir.

## IX fəsil
## YEKUN MÜDDƏALAR

Maddə 60. **Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə riayət edilməməsinə görə məsuliyyət**

Bu Qanunun və avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə riayət etməyən avtomobil daşıyıcıları, yükgöndərənlər, yükalanlar, daşımaların təşkilatçıları, sərnişinlər və digər şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyətə cəlb olunurlar.[57]

Maddə 61. **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 aprel 2008-ci il
№ 556-IIIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 276)**
2. 30 sentyabr 2010-cu il tarixli **1084-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 21 sentyabr 2010-cu il, № 229, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 10, maddə 841)**
3. 22 oktyabr 2013-cü il tarixli **787-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 5 noyabr 2013-cü il, № 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1302)**
4. 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)**
5. 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)**
6. 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)**
7. 12 fevral 2016-cı il tarixli **127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 6 mart 2016-cı il, № 52; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 221)**
8. 16 dekabr 2016-cı il tarixli **469-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 5 fevral 2017-ci il, № 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 02, maddə 140)**
9. 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)**
10. 15 dekabr 2017-ci il tarixli **952-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 yanvar 2018-ci il, № 13, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 22)**
11. 30 noyabr 2018-ci il tarixli **1375-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 29 dekabr 2018-ci il, № 295, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2510)**
12. 18 dekabr 2018-ci il tarixli **1399-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2517)**
13. 1 fevral 2019-cu il tarixli **1476-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 15 mart 2019-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 374)**

**14.** 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 1.0.6-cı maddədə "**təminatlı**" sözü çıxarılmışdır.

[2] 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)** ilə yeni məzmunda 1.0.9-1–1.0.9-2-ci maddələr əlavə edilmişdir.

[3] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə yeni məzmunda 1.0.11-1-ci maddə əlavə edilmişdir.

[4] 18 dekabr 2018-ci il tarixli **1399-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2517)** ilə 1.0.23-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 1.0.24-cü maddə əlavə edilmişdir.

[5] 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 276)** ilə 3.2.3-cü maddəsində "**Milli Bankının**" sözləri "**Mərkəzi Bankının**" sözləri ilə əvəz edilmişdir.

[6] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 6.5-ci maddədə "**təminatlı**" sözü çıxarılmışdır, "**stansiyalarının**" sözündən sonra "(**sahələrinin**)" sözü və "**yaxud**" sözündən sonra "**təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə**" sözləri əlavə edilmişdir.

30 noyabr 2018-ci il tarixli **1375-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 dekabr 2018-ci il, № 295, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2510)** ilə 6.5-ci və 21.1-ci maddələrdə ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı**" sözləri ismin müvafiq hallarında "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə əvəz edilmişdir.

[7] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 7.1-ci maddədə "**şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm**" sözləri çıxarılmışdır.

[8] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 7.5-ci maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[9] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə yeni məzmunda 7-1-ci maddə əlavə edilmişdir.

**[10]** 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 9.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~9.2. Avtomobil nəqliyyatı işçilərinin ayrı-ayrı kateqoriyalarının iş və istirahət rejimi, iş şəraitinin xüsusiyyətləri Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunur.~~

18 dekabr 2018-ci il tarixli **1399-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2517)** ilə 9.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*9.2. Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*~~

[11] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə yeni məzmunda 9.3-cü maddə əlavə edilmişdir.

[12] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 13.3.1-ci maddədə "(**rayondaxili**)" sözündən sonra, 13.3.2-ci maddədə "(**rayonlararası**)" sözündən sonra və 13.3.3-cü maddədə "**beynəlxalq**" sözündən sonra "**müntəzəm**" sözü əlavə edilmişdir.

[13] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 14-cü maddənin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsinin şərtləri~~

[14] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 14.1-ci maddə (14.1.1-14.1.4-cü maddələr istisna olmaqla) yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~14.1. Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının yerinə yetirilməsinə xüsusi razılıq (lisenziya) aşağıdakı şərtlərlə verilir:~~

[15] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 14.1.2-ci maddədə “**buraxılmış**” sözündən sonra “**Azərbaycan Respublikasının dövlət standartları ilə müəyyən edilmiş tələblərə cavab verən**” sözləri əlavə edilmişdir.

**[16]** 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 14.1.4-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~14.1.4. hüquqi şəxsin və ya fərdi sahibkarın mülki məsuliyyətin icbari sığortası.~~

[17] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə yeni məzmunda 14.1-1-ci maddə əlavə edilmişdir.

[18] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 14.2.4-cü maddədə “**məlumat**” sözündən sonra “**(ərizədə qeyd olunmaqla)”** sözləri əlavə edilmişdir.

[19] 22 oktyabr 2013-cü il tarixli **787-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 5 noyabr 2013-cü il, № 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1302)** ilə 14.2.5-ci maddəsində “**texniki baxışdan**” sözlərindən əvvəl “**qanunla müəyyən edilmiş hallarda**” sözləri əlavə edilmişdir.

20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 14.2.5-ci maddədə “**həmin avtonəqliyyat vasitələrinin**” sözləri “**Azərbaycan Respublikasının dövlət standartları ilə müəyyən edilmiş istismar müddəti tələblərinə cavab verdiyini təsdiq edən avtonəqliyyat vasitələrinin buraxılış ili haqda və**” sözləri ilə əvəz edilmişdir.

[20] 1 fevral 2019-cu il tarixli **1476-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 15 mart 2019-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 374)** ilə 14.2.6-cı maddəyə “**kateqoriyalı**” sözündən sonra “**(altkateqoriyalı)**” sözü əlavə edilmişdir.

[21] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 14.2.7-ci maddədə “**sərnişin avtonəqliyyat vasitələrinin**,” sözlərindən sonra “**o cümlədən taksi minik avtomobillərinin**,” sözləri əlavə edilmişdir.

[22] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 14.2.8-ci maddədə “**avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyətinin**” sözləri “**bu Qanunun 14.1.4-cü maddəsinə uyğun olaraq müvafiq**” sözləri ilə əvəz edilmişdir.

[23] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə yeni məzmunda 14.2.8-1-ci maddə əlavə edilmişdir.

[24] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 14.2.9-cu maddədə “**lisenziya almaq üçün**” sözləri **“lisenziyalaşdırmaya təqdim edilmiş hər bir avtonəqliyyat vasitəsi üçün**” sözləri ilə əvəz edilmişdir.

[25] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283)** ilə 15.1-ci maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[26] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 15.2.6-cı maddədə “**avtonəqliyyat**” sözündən əvvəl “**bu Qanunla müəyyən edilmiş hallarda**” sözləri əlavə edilmişdir.

[27] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 15.3-cü maddənin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Avtonəqliyyat vasitəsindən icarə və ya etibarnamə əsasında istifadə edildikdə, lisenziya kartının etibarlılıq müddəti xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddətindən artıq olmamaqla, icarə müqaviləsinin yaxud etibarnamənin qüvvədə olma müddəti ilə müəyyən edilir.~~

[28] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə 15.4-cü maddənin üçüncü cümləsində "**və nəticəsi barədə müraciət edən şəxsə yazılı formada bildirilir**" sözləri çıxarılmışdır və yeni məzmunda dördüncü cümlə əlavə edilmişdir.

20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 15.4-cü maddənin dördüncü cümləsində "**üçün**" sözündən sonra "**(avtonəqliyyat vasitəsinin başqası ilə əvəz olunması halları istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[29] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 15.5-ci maddənin birinci cümlədə "**sərnişin**" sözü "**Taksi minik avtomobilləri ilə sərnişin daşımaları istisna olmaqla, sərnişin**" sözləri ilə əvəz edilmişdir və yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[30] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə yeni məzmunda 15-1-ci maddə əlavə edilmişdir.

[31] 15 dekabr 2017-ci il tarixli **952-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 yanvar 2018-ci il, № 13, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 22)** ilə 20.3-cü maddədə "**avtonəqliyyat vasitələri üçün müəyyən olunmuş dayanacaqlardan**" sözləri "**xüsusi olaraq müəyyən edilmiş və müvafiq qaydada işarələnmiş taksi minik avtomobillərinin duracaq yerlərindən**" sözləri ilə əvəz edilmişdir.

[32] 29 may 2015-ci il tarixli **1303-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 903)** ilə yeni məzmunda 21-1-ci maddə əlavə edilmişdir.

[33] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 22.3-cü maddənin birinci cümləsinə "**(biletə)**" sözündən sonra "**(gediş haqqının elektron qaydada ödənildiyi hallar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[34] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 25.2-ci, 25.3-cü və 25.4-cü maddələr yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~25.2. Avtomobil nəqliyyatı ilə daşınan sərnişinlər "Sərnişinlərin icbari sığortası haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada icbari sığorta olunmalıdırlar.~~

~~25.3. Yol nəqliyyat hadisələri nəticəsində şəxslərin sağlamlığına və əmlakına vurulmuş zərərə görə avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası "Azərbaycan Respublikasında nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.~~

~~25.4. Sərnişinlərin, avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi ilə əlaqədar olan heyət üzvlərinin həyatının, sağlamlığının və əmlakının, baqajın, yükün, avtonəqliyyat vasitəsinin və kommersiya risklərinin, habelə daşıyıcının məsuliyyətinin sığortalanması müvafiq sığorta müqavilələri əsasında həyata keçirilir.~~

[35] 30 sentyabr 2010-cu il tarixli **1084-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 sentyabr 2010-cu il, № 229, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 10, maddə 841)** ilə 27.1-ci maddədə "**yaşı 21-dən**" sözlərindən sonra "**, "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 24-dən**" sözləri əlavə edilmişdir.

12 fevral 2016-cı il tarixli **127-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 mart 2016-cı il, № 52; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 221) ilə** 27.1-ci maddəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~27.1. Avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 21-dən , "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 24-dən və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan sürücülər buraxılır.~~

**[36]** 1 fevral 2019-cu il tarixli **1476-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 mart 2019-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 374)** ilə 27.1.1-ci maddəyə "**kateqoriyası**" sözündən sonra "**və "D1" altkateqoriyası**" sözləri, "**avtonəqliyyat vasitələrini**" sözlərindən əvvəl **"B", "C" kateqoriyalarına və ya "C1" altkateqoriyasına daxil olan**" sözləri əlavə edilmişdir.

**[37]** 1 fevral 2019-cu il tarixli **1476-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 mart 2019-cu il, № 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 374)** ilə yeni məzmunda 27.1.1-1-ci maddə əlavə edilmişdir.

[38] 30 sentyabr 2010-cu il tarixli **1084-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 sentyabr 2010-cu il, № 229, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 10, maddə 841)** ilə 27.2-ci maddədə "**B**" kateqoriyası" sözləri "**B" və ya "BE" kateqoriyaları**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 27.2-ci maddədə "**19-dan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi bir ildən az olmayan"** sözləri "**21-dən az olmayan, iki ildən artıq müddətdə mülkiyyətində və ya digər qanuni əsaslarla istifadəsində (icarə, etibarnamə və s.) olan avtonəqliyyat vasitəsini idarə edən**" sözləri ilə əvəz edilmişdir.

[39] 20 oktyabr 2015-ci il tarixli **1405-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 23 dekabr 2015-ci il, № 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1439)** ilə 27.3-cü maddədən "**, o cümlədən taksi minik avtomobillərinin**" sözləri çıxarılmışdır və yeni məzmunda ikinci – dördüncü cümlələr əlavə edilmişdir.

16 dekabr 2016-cı il tarixli **469-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 fevral 2017-ci il, № 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 02, maddə 140)** ilə 27.3-cü maddənin birinci cümləsində "**sərnişin avtonəqliyyat vasitələrinin sürücüləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşə fəaliyyətinə və davranışına**" sözləri "**avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşə fəaliyyətinə və davranışına, habelə iş və istirahət rejiminin xüsusiyyətlərinə**" sözləri ilə, "**sərnişin daşımalarını**" sözləri "**yük və sərnişin daşımalarını**" sözləri ilə əvəz edilmişdir.

30 noyabr 2018-ci il tarixli **1375-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 29 dekabr 2018-ci il, № 295, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2510)** ilə 27.3-cü maddənin dördüncü cümləsində və 59-cu maddədə "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə əvəz edilmişdir.

[40] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 28.2-ci maddəyə "**baqaj qəbzi ilə**" sözlərindən sonra "**, yaxud gediş haqqının ödəniş alətindən istifadə etməklə ödənilməsi ilə**" sözləri əlavə edilmişdir.

[41] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 28.3-cü maddəyə "**(biletlərin)**" sözündən sonra "**və ödəniş alətinin**" sözləri, "**satışı**" sözündən sonra "**, o cümlədən ödəniş alətinə vəsaitin yüklənilməsi imkanı**" sözləri əlavə edilmişdir.

[42] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 31.0.1-ci maddəyə "**əldə etmək**" sözlərindən sonra "**(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)**" sözləri əlavə edilmişdir və həmin maddədə "**isə**" sözü "**, yaxud gediş haqqı ödəniş aləti vasitəsilə ödənildikdə**" sözləri ilə əvəz edilmişdir.

[43] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə yeni məzmunda 31.0.1-1-ci maddə əlavə edilmişdir.

[44] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 31.0.2-ci maddəyə "**marşrutlarında**" sözündən sonra "**(şəhərdaxili (rayondaxili) avtobuslar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[45] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə yeni məzmunda 31.0.2-1-ci maddə əlavə edilmişdir.

[46] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 31.0.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 31.0.10-cu maddə əlavə edilmişdir.

[47] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 32.0.3-cü maddəyə "**almaq**" və "**müvafiq sənədlərə**" sözlərindən sonra "**(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[48] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 34.0.2-ci maddədə "**Azərbaycan Respublikasının normativ hüquqi aktları**" sözləri "**İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri ilə əvəz edilmişdir.

[49] 31 oktyabr 2017-ci il tarixli **843-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2211)** ilə 36.0.6-cı maddəyə "**aşkar edildikdə**" sözlərindən sonra "**, yaxud sərnişin gediş haqqını müəyyən edilmiş qaydada ödəmədikdə**" sözləri əlavə edilmişdir.

[50] 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)** ilə 50.1-ci maddəyə "**uyğun olaraq**" sözlərindən sonra "**operator tərəfindən**" sözləri və yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[51] 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)** ilə 50.4-cü maddədə "**daşıyıcılar**" sözü "**daşıyıcıları**" sözü ilə əvəz edilmişdir.

[52] 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)** ilə 50.5-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~50.5. Beynəlxalq yük daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinin sürücüləri beynəlxalq yük daşımalarına dair beynəlxalq konvensiyalar, sazişlər və digər sənədlər, habelə bu~~

~~daşımaların xüsusiyyətləri barədə zəruri biliklərə malik olmaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş proqram üzrə xüsusi hazırlıq keçməlidirlər.~~

[53] 12 iyul 2019-cu il tarixli **1657-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 sentyabr 2019-cu il, № 191)** ilə yeni məzmunda 50.6-cı maddə əlavə edilmişdir.

[54] 18 dekabr 2018-ci il tarixli **1399-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2517)** ilə yeni məzmunda 57-1-ci maddə əlavə edilmişdir.

[55] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 58-ci maddənin adında "**pretenziya və iddialar**" sözləri "**pretenziyalar**" sözü ilə əvəz edilmişdir.

[56] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342)** ilə 58.2-ci və 58.3-cü maddələr ləğv edilmişdir.

[57] 4 aprel 2014-cü il tarixli **936-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2014-cü il, № 92, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 342) ilə** 60-cı maddədə "**qanunvericiliyi ilə müəyyən edilmiş qaydada**" sözləri "**Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda**" sözləri ilə əvəz edilmişdir.